

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 25 (24.407)

*29 iyun 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Zəfər Ordusu



## Ulu Öndər Heydər ƏLİYEV:

“***Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının Milli Ordusu – respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır.***”

## Prezident İlham ƏLİYEV:

“***Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir.***”

106 il bundan öncə, 1918-ci ilin 26 iyun tarixində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının verdiyi qərarla general-leytenant Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında Əlahiddə Azərbaycan korpusu yaradılıb. İlk ordu hissəsi sayılan bu korpusun yaradılması ilə Azərbaycanda rəsmi ordunun qurulmasına başlanılıb. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə bu tarixi gün Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olunub.

Azərbaycanda nizami və yüksək döyüş hazırlığına malik ordunun yaradılması və inkişafı görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Əgər Ulu Öndər Azərbaycana rəhbərliyinin birinci dövründə milli ordumuzun təməl prinsiplərini – hərbi təhsil infrastrukturu, kadr hazırlığı kimi məsələləri böyük uzaqgörənliklə həyata keçirmişdisə, müstəqilliyimizin bərpasından sonrakı (1993-2003-cü illər) dövrdə nizami milli ordunun qurulmasında əvəzolunmaz rol oynamışdır. Ulu Öndərin rəhbərliyi ilə peşəkar milli ordunun yaradılması isə ötən əsrin 90-cı illərində Naxçıvanda başlanılıb.

Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradılıb, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında” Qərar qəbul edilib. Həmin il oktyabrın 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirilib. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verilib. Həmin dövrdə muxtar respublikanın təhlükəsizliyi, sərhədlərinin müdafiəsi məhz dahi şəxsiyyətin rəhbərliyi ilə təmin olunub.

1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin təkmilləşdirilməsi prosesinə başlanılıb. Böyük strateq çox gözəl bilirdi ki, həmin dövrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə müqavimət göstərmək mümkün deyil. Ona görə 1994-cü ildə bağlanmış atəşkəs sazişi ölkəmizdə ordu quruculuğuna və iqtisadi inkişafa şərait yaratdı. Qısa müddətdə ordumuzun strukturu tam formalaşdırıldı, müxtəlif istiqamətlər üzrə hərbi birləşmələr yaradılaraq komplektləşdirildi. Eyni zamanda görkəmli dövlət xadiminin rəhbərliyi ilə ordunun qanunvericilik bazası yaradıldı, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun “Sülh Naminə Tərəfdaşlıq Proqramı”na qoşuldu. Nəticədə, milli hərbi birləşmələrimiz sülhməramlı qismində dünyanın müxtəlif münaqişə zonalarında iştirak edərək fəaliyyəti yüksək qiymətləndirildi. ***“Hər bir dövlətin müstəqilliyinin rəmzi, təminatçısı onun Silahlı Qüvvələridir”***, – deyən Ulu Öndərin 1993-cü ildə ali hakimiyyətə ikinci qayıdışından sonra həyata keçirdiyi tədbirlər, ümumilikdə, Azərbaycan Silahlı Qüvvələrinin inkişafına yeni mərhələ kimi daxil olub.

Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ötən dövrdə Naxçıvan Muxtar Respublikasında da uğurla icra edilib, dövlət başçısının müvafiq Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb. Bu əlamətdar hadisə Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə zəmin yaradıb. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu 2017 və 2018-ci illərdə döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülüb. 2017-ci il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi parad ordumuzun Naxçıvanda yerləşən hissələrinin gücünü hər kəsə nümayiş etdirib. 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun 26 il işğal altında olan Şərur rayonunun Günnüt kəndini və 11 min hektar ərazini azad edərək mühüm strateji üstünlüklərə yiyələnməsi isə Böyük Zəfərə gedən yolun başlanğıcı olub. Təsadüfi deyil ki, ölkə Prezidenti 2021-ci ildə Naxçıvana səfəri zamanı Günnüt əməliyyatının Azərbaycan Ordusuna qazandırdığı üstünlüyün 44 günlük Vətən müharibəsində mühüm rol oynadığını vurğulayıb: ***“...Naxçıvan Ümumqoşun Əlahiddə Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı – üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir... Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır”.***

Ümumilikdə isə Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu sahəsində başladığı işlər Prezident cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilərək ölkəmizin hərbi potensialının daha da gücləndirilməsinə səbəb olub. Nəticədə, ordumuz peşəkar kadrlarla yanaşı, ən müasir silahlarla da arsenalını gücləndirib. Amma bu illər ərzində torpaqlarımızı işğal altında saxlayan Ermənistan nəinki Azərbaycanın sülh çağırışlarına müsbət cavab vermədi, hətta yeni ərazi iddiaları ilə də çıxış etməyə başladı. Məhz bu zaman Ulu Öndərin ***“Bizim Ordumuz istənilən vaxtda Azərbaycanın torpaqlarını işğaldan azad etməyə qadirdir”*** bəyanatı 2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsində öz təsdiqini tapdı. Beləliklə, 44 günlük Vətən müharibəsində və birgünlük antiterror əməliyyatında dünya Azərbaycan Ordusunun gücünü gördü.

Zəfər savaşı ilə xalqımıza böyük qürur bəxş edən, Vətəni bütövləşdirərək hər günümüzü bayrama çevirən şanlı Ordum, hər zaman var ol! Sən var ol ki, yurdum da var olsun!

**Səbuhi HƏSƏNOV**


Naxçıvanda doğum günü iyun ayında olan şəhidlərin xatirəsi anılıb 2

COP29 sülh prosesinin nəticəsidir, yaxud iqlim siyasətində sülh gündəliyi 3

Dövlətçiliyə sədaqət nümunəsi, əmin-amanlığa xidmət amalı 4

“Qərbi Azərbaycana qayıdış” festival-konqresindən yaddaşlarda qalanlar 6-7

Naxçıvanın mərcan gözlü gözəli 12

## Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarını və "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun 2024-cü il 27 iyun tarixli Qərarını nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 98.1-ci maddəsinin I hissəsini və 109-cu maddəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisi buraxılsın.

2. Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2024-cü il sentyabrın 1-nə təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 28 iyun 2024-cü il*

# Naxçıvanda doğum günü iyun ayında olan şəhidlərin xatirəsi anılıb







İyunun 28-də "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə doğum günü iyun ayında olan şəhidlərin anım tədbiri keçirilib. Tədbirdə dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Televiziyasının doğum günü iyun ayında olan şəhidlərlə bağlı hazırladığı videoçarx izlənilib. Tələbələr videoçarxda adları çəkilən 37 Birinci və İkinci Qarabağ müharibəsi şəhidinin portretlərini səhnədə nümayiş etdiriblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli qəhrəmanlarımızın xalqımıza bəxş etdiyi zəfərdən danışıb. Qeyd olunub ki, 1990-cı illər elə bir dövr idi ki, ölkəmiz müstəqillik qazansa da, o illərdə baş verən xalq hərəkatına səriştəsiz insanlar rəhbərlik etməyə çalışırdı. Hər tərəfdə separatçı qruplaşmalar yaranmış, AXC-Müsavat cütlüyü xalqı və müstəqilliyimizi məhvə sürükləyirdi. Məhz belə bir dövrdə Naxçıvanda fəaliyyət göstərən Ümummilli Lider Heydər Əliyev xalqın son ümid yeri oldu. 1993-cü ildə xalqın çağırışına cavab verən dahi rəhbər qısa zamanda ölkədə sabitliyi təmin etdi, atəşkəsə nail oldu, soyqırımı və vətəndaş qarşıdurmalarının qarşısını aldı, iqtisadiyyatın dirçəldilməsi istiqamətində taleyüklü qərarlar qəbul etdi, ordu quruculuğuna başladı. Bir sözlə, müstəqilliyin qorunub saxlanılması və inkişaf etdirilməsi kimi çətin bir missiyanı yerinə yetirdi.

Həmin dövrdə Ulu Öndərimizin qəbul etdiyi mühüm qərarlardan biri də 26 iyun Silahlı Qüvvələr Gününün təsis olunması idi. Həmin ordu ki Ümummilli Liderimizin diqqət və qayğısı ilə formalaşmış peşəkar və vətənpərvər milli hərbçi kadrlarla komplektləşdi. Dahi rəhbərin siyasi kursunu layiqincə davam etdirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev bu gün bütün bu prinsipləri daha geniş şəkildə davam etdirir. Bütün bunların nəticəsidir ki, ordumuz düşmən üzərində parlaq qələbə qazandı.

Səlahiyyətli nümayəndə qeyd edib ki, bu gün ölkəmizdə ordu quruculuğu daha mütəşəkkil şəkildə davam etdirilir. Azərbaycan dünyanın bir sıra qabaqcıl ölkələri ilə hərbi əməkdaşlıq edir. Bu işlərin davamı olaraq cari ildən Milli Müdafiə Universitetinin hərbi kollecləri fəaliyyətə başlayacaq. Belə kolleclərdən biri də Naxçıvan şəhərində istifadəyə veriləcək. Tarixboyu hərb sənətinə böyük marağı olan naxçıvanlıların bu sahədə də fəallıq göstərəcəyinə əminliyini ifadə edən Fuad Nəcəfli bildirib ki, dövlətimiz şəhid ailələrinə daim diqqət və qayğı göstərir. Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında şəhidlərin xatirəsinə memorial abidə kompleksləri ucaldılacaq.

Səlahiyyətli nümayəndə şəhidlərimizə Allahdan rəhmət, qazilərə cansağlığı arzulayıb.

Tədbirdə şəhid baş leytenant Raqib Hüseynovun anası Rəna Hüseynova və şəhid leytenant İbrahim Vəlizadənin atası Səməd Vəlizadə çıxış edərək qəhrəman övladları ilə fəxr etdiklərini dilə gətirib, onların bəxş etdiyi başucalığından danışıblar.

Sonda "Yeni Era" teatrının kollektivi bədii kompozisiya təqdim edib.



## "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2011-ci il 28 iyun tarixli 20-IV FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2011-ci il 28 iyun tarixli 20-IV FR nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7-ci hissədə "55" rəqəmləri "65" rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə" üzrə:

1.2.1. 1.1-ci bəndə "reabilitasiyası" sözündən sonra ", himayədar ailə və övladlığagötürmə" sözləri əlavə edilsin;

1.2.2. 2.1.1-1-ci yarımbənddə "övladlığagötürmə sahəsində" sözləri "himayədar ailə və övladlığagötürmə sahələrində" sözləri ilə əvəz edilsin;

1.2.3. aşağıdakı məzmunda 3.1.48-1-ci yarımbənd əlavə edilsin:

"3.1.48-1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinə uyğun olaraq, yekun tibbi müayinənin aparılmasını təmin etmək;";

1.2.4. 3.1.56-1-ci yarımbəndə "uçotunu" sözündən əvvəl ", habelə himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların" sözləri əlavə edilsin;

1.2.5. aşağıdakı məzmunda 3.1.56-6–3.1.56-9-cu yarımbəndlər əlavə edilsin:

"3.1.56-6. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi və həmin müəssisələri tərk etməsi ilə bağlı qərar verilməsini təmin etmək;

3.1.56-7. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdən öz ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi ilə bağlı tədbirlər görülməsini təmin etmək;

3.1.56-8. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə düşməsinin qarşısının alınması ilə bağlı tədbirlər görülməsini, habelə həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanmasını təmin etmək;

3.1.56-9. himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq (himayəçilik) orqanının funksiyalarının həyata keçirilməsini təmin etmək;".

2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

3. Bu Fərmanın 1.2.3-cü yarımbəndi 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**
*Naxçıvan şəhəri, 25 iyun 2024-cü il*

## Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

"Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 iyun tarixli 176 nömrəli Sərəncamını rəhbər tutaraq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 1-ci bəndinə əsasən **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər 2024-cü il sentyabrın 1-nə təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**
*Naxçıvan şəhəri, 28 iyun 2024-cü il*



# COP29 sülh prosesinin nəticəsidir,

## yaxud iqlim siyasətində sülh gündəliyi

**Prezident İlham ƏLİYEV:**

***“COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün, həqiqətən, böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən “yaşıl enerji” sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik.”***

Azərbaycanın yekdilliklə BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibliyi edəcək ölkə seçilməsi ölkəmizin qlobal miqyasda güclü diplomatiyasının əlaməti və çoxtərəfli danışıqlar zamanı etibarlı tərəfdaş nüfuzunun təsdiqidir. Bundan əvvəl Azərbaycan BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlara uğurla sədrlik edib. Bu il isə noyabr ayında on minlərlə iştirakçı iqlim dəyişikliyi nöqteyi-nəzərindən planetimizin gələcəyini müzakirə etmək üçün COP29-la bağlı Bakıya səfər edəcək. Planetimizin ən qlobal problemlərindən biri sürətli istiləşmə və bunun qarşısının alınması məsələsidir. COP tədbirinin əsas hədəfi isə asaslı, çevik və dayanıqlı fəaliyyət göstərmək, bu təşəbbüs çərçivəsində bütün tərəfləri bir araya gətirməkdir.

Bu istiqamətdə Azərbaycan bərpa olunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir və bu məqsədlə zəngin külək və günəş potensialından istifadə edir. Bu həmçinin ölkənin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq planının mühüm tərkib hissəsidir. Ölkə 2030-cu ilə qədər elektrik enerjisində bərpa olunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və “yaşıl enerji” sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir.

“Yaşıl enerji” növlərinin yaradılması və “yaşıl enerji”nin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası “yaşıl enerji zonası” elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir.

Onu da qeyd etməliyik ki, COP kimi mötəbər beynəlxalq tədbirə ev sahibliyi etmək ölkəmiz qarşısında yeni üfüqlər açır. Ölkəmizin bu tədbirə özünəxas yanaşması – Azərbaycanın COP29-da “Sülh və iqlim qovşağı” mövzusuna diqqəti BMT-nin iqlim Konfransında təqdirlə qarşılanıb.

Qlobal iqlim dəyişmələri bir çox sahələrdə olduğu kimi, beynəlxalq təhlükəsizlik üçün də ciddi çağırışlar yaradır. Məhz buna görə də Azərbaycanın COP29 sədrliyi zamanı prioritetlərindən biri beynəlxalq sülh və təhlükəsizliyə dəstək olmaqdır. Ölkə başçısının tapşırığı ilə iqlim konfransları tarixində ilk olan COP atəşkəs çağırışı üzərində beynəlxalq tərəfdaşlarla iş aparılır.

COP29 sülh prosesinin nəticəsidir. Budəfəki COP-un mövzusu maliyyə olmasına baxmayaraq, ev sahibi ölkə olaraq Azərbaycan gündəliyə bir neçə əlavə edə bilər və belə məsələlərdən biri də sülhdür. Birincisi, ona görə ki, Azərbaycan məhz sülh prosesi sayəsində COP29-a ev sahibliyi etmək hüququ qazandı. Çünki burada Ermənistan vetosunu aradan qaldırdı və qarşılıqlı addımlar atıldı. İlk dəfə idi ki, Azərbaycan və Ermənistan beynəlxalq arenada bir-birinə qarşı addım atmaq məcburiyyətində qalmadı. Qarşılıqlı dəstək olmasa da, bitərəf qaldı və bunun özü də bir nailiyyət idi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ən həssas kateqoriya olan kiçik ada dövlətləri üçün xüsusi dəstək fondunun yaradılması təşəbbüsünü də xüsusilə qeyd etmək lazımdır. Dünya əhalisinin getdikcə artan hissəsinin həm iqlim dəyişmələri, həm münaqişələrdən əziyyət çəkməsi, bu baxımdan daha çox regionların “xüsusilə həssas” kateqoriyasına daxil olması, ölkəmizin COP29 sədri qismində təşkil etdiyi tədbirin bu qəbildən olan dünya xalqları üçün işlək strategiya və əməli dəstəyin təmin edilməsi məqsədi daşıması bu tədbirin ən əhəmiyyətli hissələrindən biridir.

Hazırda Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmiz iqlim dəyişmələri ilə qlobal mübarizədə nümunəvi liderlik nümayiş etdirir. Prezident cənab İlham Əliyevin müxtəlif çıxış və müsahibələrində açıqladığı vacib istiqamətlər, səsləndirdiyi tezislər Azərbaycanın COP29 üzrə fəaliyyətinin əsasını təşkil edir və dövlət başçısının inkişaf etməkdə olan kiçik ada dövlətlərinin iqlim dəyişmələri kontekstində üzləşdikləri problemlərin həllini ölkəmizin prioritetlərindən biri olaraq bəyan etməsi beynəlxalq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb. Beynəlxalq aləmdəki vətəndaş cəmiyyətləri də proseslərə öz töhfəsini verir. 130-dək Afrika QHT-si və İtaliyada C7 Vətəndaş Cəmiyyəti Sammitində iştirak edən bir sıra QHT-lər tərəfindən COP29-un ev sahibi kimi Azərbaycana dəstək bəyanatlarının verilməsi bu istiqamətdə xüsusi olaraq qeyd edilməlidir.

Prezident cənab İlham Əliyevin ***“Bildirmək istərdim ki, Azərbaycan COP29-a var gücü ilə hazırlaşır, yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək, planetimizin gələcəyi üçün müsbət nəticələr əldə etmək üçün səylərini əsirgəmir”*** fikirləri ilə yanaşı, ***“Eyni zamanda iqlim dəyişmələrinin mənfi təsirlərinə ən çox məruz qalan inkişaf etməkdə olan kiçik ada dövlətlərinin üzləşdiyi problemlərin həlli COP29 sədrliyimizin gündəliyində duran prioritet məsələlərdən olacaqdır”*** bəyanı ölkəmizin bu istiqamətdəki davamlı fəaliyyətinin daha geniş – qlobal səviyyəli bir xarakter daşıdığını bir daha sübut edir.

“Yaşıl enerji” mövzusu bütün dünyada olduğu kimi, Azərbaycanda da çox önəmli mərhələdədir. Son dövrlərdə Azərbaycanda bu məsələ üzrə çox ciddi planlar, tətbiqlər var, investisiyalar olacaq. Bu baxımdan Naxçıvan çox önəmli rola malikdir. Son dönəmlərdəki təkmilləşdirmələrlə burada “yaşıl enerji” sahəsinə diqqət olduqca artmaqdadır. Bu baxımdan həm indi, həm də gələcəkdə Naxçıvanın bir enerji koridoru olmaq potensialı var.

Naxçıvanda “yaşıl enerji” konsepsiyasının həyata keçirilməsi və enerji potensialından səmərəli istifadə cənab İlham Əliyevin diqqət mərkəzindədir və bu məqsədlə sistemli işlər aparılır. Naxçıvanın “yaşıl enerji zonası”na çevrilməsi üçün yeni yol xəritəsi müəyyənləşəcək. Nəticədə, Azərbaycan regional və Avropa miqyasında təhlükəsiz və dayanıqlı enerji təchizatçısına çevriləcək, onun strateji əhəmiyyəti daha da artacaq.

Hələ ötən il Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə III Enerji Forumu və “Naxçıvan – Yaşıl Enerji Zonası” Beynəlxalq Konfransı çərçivəsində “Naxçıvan “yaşıl enerji” zonası kimi: potensial imkanlar və layihələr”, “Naxçıvanın yaşıl enerji potensialının Türkiyəyə və Avropa bazarlarına ixracı imkanları”, “Naxçıvanda bərpa olunan enerji mənbələri sahəsində konseptual yanaşmalar və milli kontentin yaradılması imkanları”, “Naxçıvanda yaşıl enerji layihələrinin maliyyələşdirilməsi imkanları” mövzularında plenar sessiyaların keçirilməsi muxtar diyarın bu istiqamətdəki mövqeyinin və strateji əhəmiyyətinin daha da çoxalmasından xəbər verir.

Azərbaycanın enerji siyasəti regionun təhlükəsizliyində strateji faktordur. Xüsusilə Zəngəzur dəhlizinin açılması perspektivində qarşıya qoyulan əsas hədəf Naxçıvanda alternativ və bərpa olunan enerji potensialından maksimum istifadə olunması, elektrik enerjisinin Türkiyəyə ixrac edilməsi və Avropaya ötürülməsindən ibarətdir. Eyni zamanda bu, beynəlxalq enerji şirkətləri ilə “yaşıl enerji” tərəfdaşlığımızın miqyas və coğrafiya etibarilə daha da genişlənməsidir.

Bu gün Azərbaycan ardıcıl enerji siyasətini uğurla həyata keçirir və regionda hökm sürən sabitlik və enerji təhlükəsizliyi məhz bu siyasətin nəticəsidir. Adını tarixə “Yaşıl artım ölkəsi” olaraq yazdıran, COP29 kimi mötəbər tədbirin sədrliyini öz üzərinə götürən Azərbaycan bütün tərəflərlə səmimi və nəticəyönümlü dialoq quraraq COP prosesini irəli aparmaq, səmərəli iqlim fəaliyyətini təmin etmək və COP29-un uğurlu nəticələrlə yekunlaşması üçün əlindən gələni etmək əzmindədir.

**Məmməd BABAYEV**

# Türkiyə investisiyaları ölkə üzrə ikinci, muxtar respublika üzrə birinci yeri tutur

Bu gün iqtisadi sahədə aparılan islahatlar, innovasiyayönümlü sosial-iqtisadi siyasətin davam etdirilməsi Azərbaycan iqtisadiyyatını yeni mərhələyə çıxarıb və ölkəmiz xarici investisiyalar üçün cəlbedici məkana çevrilib. Dövlət başçısının 2020-ci il 7 avqust tarixli Sərəncamına əsasən Azərbaycan İnvestisiya Holdinqinin yaradılması, investisiya mühitinin daha da yaxşılaşdırılması üçün vergi və gömrük islahatlarının davamlı xarakter daşıması, onlayn vahid ixrac ərizəsi, “Yaşıl dəhliz”, elektron məhkəmə, elektron satınalma, tikintidə “bir pəncərə”, biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm tədbirlər həyata keçirilməsi bu istiqamətdə nailiyyətlərin əldə olunmasını şərtləndirib. Bu yeniliklər isə Dünya Bankının “Doing Business” reytinqində ölkəmizin ilk iyirmiliyə daxil olması ilə nəticələnib.

Təsadüfi deyil ki, Dünya Bankı ekspertlərinin fikrincə, ölkəmizin belə müsbət nəticə əldə etməsi Azərbaycanda 4 sahədə – daşınmaz əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların müdafiəsi, müqavilə intizamı bizneslə məşğul olmağın daha da asanlaşması ilə bağlıdır. Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması həm də ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlıq baxımından seçilməsi ilə bağlıdır. Bununla bərabər, yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. Digər tərəfdən, Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirir. Bundan əlavə, investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılması kimi məsələlərin diqqət mərkəzində saxlanılması da bu işə öz töhfəsini verib.

Təsadüfi deyil ki, “İnvestisiya fəaliyyəti haqqında”, “Xarici investisiyaların qorunması haqqında”, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” qanunların və bir sıra normativ sənədlərin qəbulu məhz bu məqsədi daşıyıb. Həmçinin Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması ilə bağlı çox sayda sazişlər imzalanıb. Avropa İttifaqının 20-dən çox üzv ölkəsi ilə respublikamız arasında ikiqat vergitutma aradan qaldırılıb. Görülən bütün bu işlərin nəticəsində cari ilin birinci rübündə Azərbaycan investorlarının xarici ölkələrə yatırdığı birbaşa investisiyalar üzrə gəlirlər ötən ilin eyni dövrü ilə müqayisədə 9 faiz, qeyri-neft-qaz sahəsi üzrə qoyulan birbaşa investisiyalardan əldə edilən gəlirlər isə 92 faiz artıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, xarici investorların Azərbaycana yönəltdiyi birbaşa xarici investisiyalardan əldə olunan gəlir, əsasən, neft-qaz sektorunu əhatə edib. Bu dövrdə xarici investorlar ölkəyə yatırılan birbaşa investisiyalardan 837,3 milyon ABŞ dolları məbləğində gəlir əldə ediblər ki, bu məbləğin 93,8 faizi xam neft və qaz şəklində repatriasiya vasitəsilə əldə olunub. Cari ilin yanvar-mart aylarında Azərbaycan iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyalar ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz artaraq 1,5 milyard ABŞ dolları səviyyəsinə çatıb. Habelə cari ilin ilk rübündə birbaşa xarici investisiyaların ÜDM-ə nisbəti 8,8 faiz, qeyri-neft-qaz birbaşa xarici investisiyaların qeyri-neft-qaz ÜDM-ə nisbəti isə 1,7 faiz təşkil edib. Buna baxmayaraq, qeyri-rezidentlərin yerli iqtisadiyyata yatırdığı birbaşa xarici investisiyalar üzrə xalis maliyyə öhdəlikləri 358,7 milyon ABŞ dolları azalıb. Birinci rübdə Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiyanın 12,4 faizi qeyri-neft-qaz sektorunun payına düşüb.

Bu dövrdə ölkəmizə ən çox birbaşa xarici investisiyanı Birləşmiş Krallıq (443,2 milyon ABŞ dolları), Türkiyə (261,4 milyon ABŞ dolları) və Birləşmiş Ərəb Əmirlikləri (190,7 milyon ABŞ dolları) yatırıb. Naxçıvan Muxtar Respublikasında isə hazırda fəaliyyət göstərən xarici sərmayəli şirkətlərin 78 faizini Türkiyə şirkətləri təşkil edir. Rəsmi məlumata görə, bu ilin yanvar-aprel aylarında qardaş Türkiyə muxtar respublikanın xarici ticarət dövriyyəsində ilk yeri tutub və Naxçıvanın xarici ölkələrlə ticarət dövriyyəsinin ümumi həcmi 32,2 milyon dollar olub ki, burada da Türkiyənin payı 52,7 faiz təşkil edib. Buradan da məlum olur ki, cari ilin birinci rübü üçün Türkiyə investisiyaları ölkə üzrə ikinci, muxtar respublika üzrə isə birinci yeri tutub.

**Səbuhi HƏSƏNOV**



# Dövlətçiliyə sədaqət nümunəsi, əmin-amanlığa xidmət amalı

***İyulun 2-si onların günüdür. Dövlətçiliyə sədaqət andı içən, sabitliyə, əmin-amanlığa xidmət edən Azərbaycan polislərinin. Azərbaycan polisinin yaranmasının 106-cı ildönümü tamam olur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-si Azərbaycan Polisi Günü elan edilib.***

***Daxili işlər orqanlarının formalaşmasında mühüm mərhələ***

Ulu Öndər Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə daxili işlər oqranlarının inkişafına, strukturunun təkmilləşdirilməsinə xüsusi diqqət yetirib. Dövlətin əsas sütunlarından sayılan bu orqanların təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar milli kadrlarla komplektləşdirilməsi və milli kadrların irəli çəkilməsi ilə bağlı önəmli qərarlar qəbul edilib. Bu amil müstəqillik dövründə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında müstəsna rol oynamaqla yanaşı, ərazi bütövlüyümüzün bərpası uğrunda mübarizədə də özünü göstərib.

Kadrların milli ruhda yetişdirilməsinin nəticəsi idi ki, 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü ilk olaraq rəşadətlə dəf edən nizami qüvvə milis, sonrakı illərdə Daxili Qoşun hissələri oldu. Birinci Qarabağ müharibəsindəki döyüşlərdə 1700-ə yaxın polis əməkdaşı və hərbi qulluqçu şəhidlik zirvəsinə ucalıb, 1710 nəfər isə yaralanıb. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 1143 nəfər orden və medallara layiq görülüb...

Ümummilli Liderin 1994-cü ilin avqust ayında imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərmanla bu sahədə fəaliyyətin təşkilati-hüquqi bazasının və gələcək uğurların möhkəm təməli qoyuldu.

Daxili işlər orqanları öz peşəkar fəaliyyəti ilə müstəqilliyimizin sonrakı illərində də uğurlara imza atıb. Azərbaycan polisi sabitlik, əmin-amanlıq naminə yeri gəldikdə canını belə fəda edərək bütün tədbirləri vaxtında, dəqiqliklə icra edib.

***Dəyişən dövr, müasir metodlar, peşəkar yanaşma***

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə aparılan islahatlar çərçivəsində daxili işlər orqanlarının da fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması üçün tədbirlər həyata keçirilib. Ötən illərdə xidmətin cəmiyyətin maraqlarına tam cavab verməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun qurulması məqsədilə müxtəlif fərman və sərəncamlar imzalanıb.

Dövlət başçısı daim Daxili İşlər Nazirliyinin strukturunun və normativ-hüquqi bazasının, maddi-texniki təchizatının təkmilləşdirilməsi, şəxsi heyətin sosial müdafiəsinin və təminatının gücləndirilməsinə xüsusi diqqət yetirir. Bu gün müasirləşmə tendensiyası DİN-in bütün orqan və hissələrini əhatə edir. Fəaliyyətin beynəlxalq standartlara uyğunlaşdırılması, maddi-texniki təminatın yaxşılaşdırılması, o cümlədən ən müasir texnologiyalarla təchizat yüksək səviyyəyə çatdırılıb, onlarla elektron xidmət, veb-sayt, "Qaynar xətt" və digər informasiya resursları yaradılıb, polisin "ASAN xidmət" mərkəzlərində fəaliyyəti təşkil olunub.

Əzəli torpaqlarımızın düşmən tapdağından azad olunmasında böyük şücaət və qəhrəmanlıq nümunəsi göstərən Daxili Qoşunların xüsusi təyinatlıları düşmənə sarsıdıcı zərbələr vuraraq yüzlərlə canlı qüvvəsini və döyüş texnikasını məhv etdilər. Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyəti 66 şəhid verdi, 346 hərbi qulluqçu isə yaralandı. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin imzaladığı sərəncamlarla Daxili Qoşunların əməkdaşlarından 1690-ı müxtəlif orden və medallara, o cümlədən 4 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldü.

Bu gün ölkəmizin bütün bölgələri ilə yanaşı, işğaldan azad olunan ərazilərdə, Şuşada, Laçında, Xankəndidə daxili işlər orqanlarının fəaliyyəti təşkil olunub, günün bütün saatlarında polislərimiz vətəndaşların əmin-amanlığının təmini, dövlətin qanuni mənafelərinin qorunması keşiyində mətinliklə dayanırlar. Hər gün bu peşəkar hüquq-mühafizə əməkdaşları onlarla qanunsuz silahlar aşkarlayır, narkobiznesin qarşısını alır, mütəşəkkil cinayətkar qrupları müəyyənləşdirərək məsuliyyətə cəlb edir.

Daxili işlər orqanlarının əməkdaşlarının göstərdikləri şücaət, peşəkar fəaliyyət dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir. 2 iyul – Azərbaycan Polisi Günü hər il böyük təntənə ilə qeyd olunur. Dövlətimizin başçısı Azərbaycan Polisinin fəaliyyətini dəyərləndirib: ***"Cinayətkarlığa qarşı mübarizədə polis işçiləri ön cəbhədədir. Bu gün Azərbaycanın inkişafında polis orqanlarının çox böyük xidmətləri var. Mən polisin işini yüksək qiymətləndirirəm".***

***100 ilin polisləri – muxtar respublikada ictimai asayiş diqqət mərkəzindədir***

Bir əsrlik tarixi inkişaf yolu qət edən Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə gedən tərəqqi prosesləri daxili işlər orqanlarını da əhatə edib. Bu proses özünü həm maddi-texniki təminatda, həm də kadr, struktur islahatlarında göstərib. Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazasının gücləndirilməsi ictimai təhlükəsizliyin daha da etibarlı qorunması üçün mütəmadi olaraq texniki vasitələrin alınması, şəxsi heyətin istifadəsinə yeni avtomobillərin verilməsi işin günün tələbləri səviyyəsində qurulmasına geniş imkanlar açıb. Nəticədə, bu gün muxtar respublikanın paytaxtı Naxçıvan şəhərindən ucqar dağ kəndlərinədək hər yerdə ictimai asayişin qorunması, sabitliyin bərqərar edilməsi üçün lazımi xidməti fəaliyyət təşkil olunub.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin aid idarə, şöbə və xidmətlərinin kadr təminatı da daim diqqətdə saxlanılır, bacarıqlı kadrların yetişdirilməsi istiqamətində işlər həyata keçirilir. Bu baxımdan nazirliyin Orta İxtisas Polis Məktəbi 5-ci ildir, nümunəvi fəaliyyət göstərir. Bu illər ərzində məktəbin 3 məzun buraxılışı olub. Məktəbin fəaliyyətinin əsas istiqaməti daxili işlər orqanları üçün orta ixtisas təhsilli zabit kadrları hazırlamaq və daxili işlər orqanları əməkdaşlarının əlavə təhsil almalarını təşkil etməkdir. Belə ki, məktəbdə orta ixtisas təhsili alan kursantlarla yanaşı, daxili




işlər orqanlarında xidmətə yeni qəbul edilmiş sıravi və kiçik rəis heyəti əməkdaşları da ilkin hazırlıq kursu keçirlər. Orta ixtisas təhsilini müvəffəqiyyətlə bitirən məzunlara "Hüquq-mühafizə fəaliyyəti" ixtisası verilməklə, daxili işlər orqanlarında polis zabiti kimi xidməti vəzifələrə təyin olunurlar.

Hər ay muxtar respublikanın müəyyən istiqamətlərini əhatə edən səyyar xidmət təşkil edilir. Xidmət zamanı dövlət qurumlarından uzaqda yerləşən yaşayış məntəqələrində sakinlərin şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi istiqamətində tədbirlər görülür. Həmçinin vətəndaş məmnunluğunun artırılmasına xidmət edən, yaşlı, fiziki qabiliyyəti məhdud şəxslərin və ya yataq xəstələrinin yaşadıqları mənzillərdə şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportları ilə təmini istiqamətində də işlər görülür. Bundan başqa, Dövlət Yol Polisi İdarəsinin əməkdaşları il ərzində yol hərəkəti iştirakçılarını maarifləndirmək məqsədilə tədbirlər keçirir, məktəblilərə yeraltı, yerüstü piyada keçidləri əyani şəkildə göstərilir, uşaqların zərərli vərdişlərdən uzaq tutulması, idmana yönəldilməsi, həmçinin internetdən gələ biləcək təhlükələr barədə mütəmadi olaraq maarifləndirici söhbətlər aparılır. Cinayətkarlıqla mübarizə fəaliyyətində vacib əhəmiyyət kəsb edən sahələrdən biri Kibercinayətkarlıqla Mübarizə Bölməsidir ki, bu bölmə vətəndaşların kibertəhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm iş aparır. Vətəndaşların kiberdələduzluq hallarının qurbanına çevrilməməsi, internet resurslarından, o cümlədən sosial şəbəkələrdən istifadə edərkən ayıq-sayıq olmaları, işbazların şirnikləndirici təkliflərinə inanmamaları üçün tez-tez maarifləndirici postlar, videomateriallar paylaşılır.

Muxtar respublikada son dövrlərdə həyata keçirilən struktur islahatları nəticəsində işə yanaşmada yeni mexanizmlərin, müasir metodların tətbiqi, fəaliyyətin daha da peşəkarlaşdırılması polis orqanları tərəfindən cinayət hadisələrinin üstünün qısa zamanda açılmasına, narkotik ticarətinin qarşısının alınmasına yol açıb. Naxçıvan polisi öz çəldliyi, çevikliyi ilə yanaşı, həm də ilin müxtəlif əlamətdar günlərində məxsusi, maraqlı aksiyaları, jestləri ilə tanınır, bu nümunəvi davranışlar vətəndaşlar tərəfindən də böyük məmnunluqla qarşılanır. Ümumiyyətlə, son iki ildə Naxçıvanda əsl polis mədəniyyəti, vətəndaşlarla düzgün münasibət, davranış qaydaları formalaşıb, polis əməkdaşlarına inam, etibar artıb...

Nobel mükafatı laureatı, tanınmış yazıçı Qabriel Qarsiya Markes deyirdi ki, ədəbiyyat olmasaydı, dünya zərrəcə dəyişməzdi. Amma polis olmasaydı, dünya tamamilə başqa cür olardı. Bəli, bu gün dünyada baş verən kriminogen vəziyyətləri, neqativ halları, cinayət hadisələrini düşünəndə məşhur ədəbiyyatçının fikirlərinə haqq qazandırmaya bilmir və nə yaxşı ki belə çevik, bacarıqlı polislərimiz var deyirik. Təqdirəlayiq haldır ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi və tapşırıqları əsasında ölkəmizdə insan üçün ən qiymətli həyati devizə malik olan sabitlik, əmin-amanlıq bərqərar olunub, vətəndaş məmnunluğu təmin edilib. Hökm sürən bu təhlükəsiz yaşayışın təməlində digər hüquq-mühafizə orqanları ilə yanaşı, məhz çevik, peşəkar Azərbaycan polisi də dayanır. Dövlətçiliyə sədaqət nümunəsi, əmin-amanlığa xidmət amalı ilə daim seçilməyin, təqdir edilməyin arzusu ilə günün mübarək, peşəkar Azərbaycan polisi!

**Nail ƏSGƏROV**



# "Qərbi Azərbaycana qayıdış" festival-konqresi çərçivəsində iştirakçılar bu tədbirlə bağlı fikir və təəssüratlarını "Şərq qapısı" qəzetinin oxucuları ilə bölüşdülər

İyunun 21-23-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış" festival-konqresi keçirildi. Bu festival-konqresin keçirilməsində əsas məqsəd tarixi ədalətin bərpa edilməsi yolunda Azərbaycan Prezidentinin yurd-yuvasından didərgin, qaçqın düşmüş Azərbaycan türklərinin tarixi haqlarının bərpasına istiqamətlənmiş siyasətin elmi əsaslarla həm yerli, həm regional, həm də beynəlxalq səviyyədə işıqlandırılmasına nail olmaq, həmçinin ölkənin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yenilikləri dinləmək və fikir mübadiləsi aparmaq idi. Hər kəs tərəfindən böyük maraqla qarşılanan festivalda ölkəmizin müxtəlif bölgələrində yaşayan və əslən Qərbi Azərbaycandan olan vətəndaşlar, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbələri, həmçinin Qərbi Azərbaycandan olan muxtar respublika sakinləri, qardaş Türkiyə universitetlərinin təmsil olunması tədbirin möhtəşəmliyindən xəbər verirdi. Təsadüfi deyil ki, böyük ictimai-siyasi məzmun kəsb edən festivalın konqres hissəsində 7 istiqamət 24 bölmə üzrə 300-dən çox məruzə dinlənilmiş, dəyərli elmi əsərlərin təqdimatı keçirilmişdir. Şübhəsiz ki, bu festival-konqres qərbi azərbaycanlıların öz ata-baba yurdlarını unutmadıqlarını, ora qayıdacaqlarına inamlarını növbəti dəfə əks etdirdi. Azərbaycan Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və amimam ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".***

## "Qərbi Azərbaycana qayıdış" festival-konqresi ikinci gün bölmə iclasları ilə davam edib



Xəbər verdiyimiz kimi, iyunun 21-də Zəngəzur Milli Parkında keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresi ikinci gün bölmə iclasları ilə davam edib.

Bölmə iclaslarında "Qərbi Azərbaycan: tarix, həqiqətlər və faktlar", "Qərbi Azərbaycanın mədəni sərvətləri", "Qərbi Azərbaycan: dil faktları və toponimika", "Qərbi Azərbaycan ədəbiyyatı və folkloru", "Qərbi Azərbaycanda elm və təhsil", "Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri", "Qərbi Azərbaycanın təbii sərvətləri", "Qərbi Azərbaycanın mədəni sərvətləri" mövzularında məruzələr dinlənilib.



Məruzələrdə Qərbi Azərbaycanda yerləşən arxeoloji abidələr, ilk insan məskənləri, tarixi abidələrin tədqiqi vəziyyəti, Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsi, etnomədəni terror, azərbaycanlılara qarşı çarizmin müstəmləkə siyasəti, 1905-1907, 1918-1920, 1948-1953 və 1987-1991-ci illərdə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı və deportasiya siyasətindən bəhs olunub, Qərbi Azərbaycanda orta əsrlərdə fəaliyyət göstərmiş məktəb və mədrəsələr, həmçinin XIX əsrdə fəaliyyət göstərən təhsil ocaqları, bu bölgədə tarixən mövcud olan mədəni irs və onun bugünkü vəziyyəti, eyni zamanda bu torpaqlarda yaşamış saz-söz ustalarının yaradıcılığı, görkəmli elm adamları, şairlər və incəsənət xadimləri haqqında məlumatlar verilib.

Bölmə iclaslarında Qərbi Azərbaycan şivələri və toponimikası, Qərbi Azərbaycan ədəbiyyatı və folkloru istiqamətində məruzələrlə yanaşı, Qərbi Azərbaycanın təbii sərvətləri, coğrafiyası, o cümlədən fauna və florası haqqında da məruzələr olub. Bundan əlavə, Qərbi Azərbaycandan deportasiya olunmuş azərbaycanlıların pozulmuş hüquq və azadlıqları, bölgədə törədilmiş beynəlxalq cinayətlər və Ermənistanın məsuliyyəti, həmçinin Qərbi Azərbaycanda xalqımıza məxsus mədəni irsin beynəlxalq hüquqi müdafiəsi istiqamətində çıxışlar da dinlənilib.

İclasların sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılması məqsədilə çap edilmiş dəyərli elmi əsərlərin təqdimatı da olub.

## Qərbi Azərbaycan mövzusu bu gün ölkə Prezidenti tərəfindən ziyalılar qarşısında əsas vəzifə kimi qoyulub



Bu sözləri Naxçıvan Dövlət Universitetinin rektoru ***Elbrus İsayev*** "Qərbi Azərbaycana qayıdış" konqresinin açılış mərasimində deyib.

Rektor bildirib ki, Ali Baş Komandanımızın tapşırığı ilə Qarabağın işğaldan azad olunmasını, Qarabağa qayıdışı bizim müzəffər Ordumuz icra edibsə, Qərbi Azərbaycana qayıdışı da alimlər ordusu, yəni bizlər qələmlə, sözlə, fikirlə, tarixlə, ədəbiyyatla təmin etməliyik. Çox məntiqi, çox ideal, ədalətli və sülhə çağırışı olan bir konsepsiyanın müddəasıdır ki, biz bu işi, tarixi ədaləti elmi tədqiqatların, reallığın, bir sözlə, gerçəkliyin ixtiyarına buraxaq. Bunu beynəlxalq ictimaiyyətə çatdıraq ki, alimləri, tədqiqatçıları, cəmiyyətimizi Qərbi Azərbaycan kökənli insanları bu işə səfərbər etməklə, heç bir əraziyə iddia etmədən, heç bir mədəni sərvətə iddia etmədən öz ədalətli tələbimizi gerçəkləşdirə biləK. Bunun üçün də biz bu mövzu ətrafında birləşib özümüzü, ictimaiyyəti, eləcə də bütün dünyanı buna inandırmağa çalışmalıyıq və biz bu festivalı keçirməklə təkcə Azərbaycan ictimaiyyətinə yox, eləcə də beynəlxalq ictimaiyyətə mesaj vermiş oluruq.

Həmin gün Ordubad rayonunda Zəngəzur dəhlizinə doğru simvolik yürüşdə Elbrus İsayev qeyd edib ki, bizim üçün çox önəmli olan əsas yolun üzərində dayanmışıq. Bu yol Zəngəzur yoludur. Cənab Prezidentin zəfərdən sonra qarşımıza qoyduğu Qərbi Azərbaycana qayıdış, eləcə də bütövlükdə işğaldan azad olunan Böyük Qayıdış Proqramının tərkib hissəsi kimi bu görüşlər gerçəkləşir. Koridorun yanında, çox yaxın məsafədəyik. Arzulayırıq ki, növbəti tədbirlərimizi bu yoldan istifadə edərək daha geniş, daha böyük formada, kütləvi şəkildə keçirək. Biz buna əminik. Çünki Müzəffər Ali Baş Komandanın sözü imzasıdır. İnanırıq ki, gələn festival-konqresdə biz qonaqlarımızı məhz bu yolda, Zəngəzur koridorunda qarşılayacağıq. Bu bizim haqqımızdır, hüququmuzdur. Çünki buralar tarixi Azərbaycan torpaqlarıdır. Buna görə də ədalətsizliyə son qoyulmalıdır. Bir ölkənin öz ərazisində sərbəst gediş-gəlişi təmin olunmalıdır.

## Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli



Naxçıvanın Batabat yaylağında keçirilən "Qərbi Azərbaycana qayıdış" festivalı çox möhtəşəm təşkil olunub. Bu bizim Qərbi Azərbaycana qayıdışla bağlı dünya ictimaiyyətinə mesajımızdır. Hər kəs bilməlidir ki, ata-baba yurdlarımıza qayıtmaq beynəlxalq hüquqa söykənən haqlarımızdır və bunun alternativi yoxdur. Bu qayıdış gec-tez reallaşacaq. Biz Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə, Naxçıvan Dövlət Universitetinin rəhbərliyinə və bütün kollektivinə, digər təşkilatçılara, eyni zamanda Elm və Təhsil Nazirliyinin rəhbərliyinə belə möhtəşəm festival-konqres təşkil etdikləri üçün öz təşəkkürlərimizi bildiririk.

Bu fikirləri Naxçıvanda keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresində iştirak edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri ***Əziz Ələkbərli*** bildirib:

"Builki tədbir, heç şübhəsiz ki, böyük bayramdır. Burada Qərbi Azərbaycan mahallarında olduğu kimi, tarixi ənənələrimizə uyğun çadırlar qurulub. Bu, yaddaşı təzələmək üçün mühüm əhəmiyyətə malikdir. Burada Qərbi Azərbaycanla bağlı nümayiş olunan sərgilər, o cümlədən mətbəx və geyim nümunələri mədəni irsimizə sahib çıxmaqda qərarlı olduğumuzu sübut edir və bir daha göstərir ki, biz öz tarixi torpaqlarımıza qayıtmaqda qərarlıyıq və heç nəyi yaddan çıxarmamışıq", – deyə o əlavə edib.

## İğdır Universitetinin rektoru Mehmet Hakkı Alma

İğdır Universitetinin rektoru, professor-doktor ***Mehmet Hakkı Alma*** Batabat yaylağında keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresi haqqında öz təəssüratlarını bölüşüb:



– Batabatın çox gözəl panoram mənzərəsi və gözəl havası var. Bu gün burada məndən əlavə başqa universitetlərin rektorları da iştirak edir. Bu yerlər – Batabat yaylaqları əsrarəngiz gözəlliyi ilə seçilən çox mükəmməl yerlərdir. Bu gün burada insanların üzündə xoş bir təbəssüm, gözlərində ümid qığılcımları görürük. Eyni zamanda burada olmaqdan çox qürur duyuruq. "Qərbi Azərbaycana qayıdış" festival-konqresinin keçirilməsinin Zəngəzur dəhlizinin açılmasına çox böyük təsiri var. Səmimi olaraq bildirim ki, festivalda çoxdandır, görmədiyim azərbaycanlı iş adamlarını və siyasətçiləri görüb söhbət etmək imkanım oldu. Bildiyimiz kimi, Qərbi Azərbaycana qayıdış sülh yolu ilə olacaq. Sülh dünya üçün vacibi bir amildir. Mən də inanıram ki, Qərbi Azərbaycandan olan qardaşlarımız öz yurd-yuvalarına qayıdacaqlar.

## Azərbaycan Milli Konservatoriyasının rektoru Siyavuş Kərimi:



– Bu festivalın ikinci dəfə təşkil olunmasına baxmayaraq, mən buraya ilk dəfədir ki, gəlirəm və sizə onu da deyim ki, çox gözəl təşkil olunmuş bir tədbirdir. Ona görə gözəldir ki, həm qərbi azərbaycanlıların konqresi, həm də festival keçirilir. Bu festival-konqresin keçirilməsi çox təqdirəlayiqdir. Burada müxtəlif universitetlərin rektorları, nazirliklərin əməkdaşları, Naxçıvan rəhbərliyi və başqa mötəbər qonaqlar toplaşıb. Bu tədbir bir vaxtlar Azərbaycanın tərkibində olan, azərbaycanlıların məskunlaşdığı torpaqlara qayıdışımızı özündə əks etdirən vacib bir tədbirdir.

## Naxçıvandan baxanda Qərbi Azərbaycan mahallarını görürük



***Əpoş Vəliyev*** – AMEA Folklor İnstitutunun folklor şöbəsinin elmi işçisi: – Naxçıvanda "Qərbi Azərbaycana qayıdış" festival-konqresinin keçirilməsi mühüm hadisədir. Naxçıvan həm də Şərqin qapısıdır. Buradan baxanda biz artıq Qərbi Azərbaycan mahallarını görürük. Bu gün qarşımıza qoyduğumuz məqsəd sülh yolu ilə torpaqlarımıza qayıdışdır. Bütün qərbi azərbaycanlıların da ən böyük arzusu doğma ata-baba yurdlarına qayıtmaqdır. Buna görə də bu gün Azərbaycanımızın qədim diyarı olan Naxçıvanda bir çox tanınmış insanlarımızın, o cümlədən elm adamlarımızın belə bir möhtəşəm konfransda iştirak etməsi həmvətənlərimizin yurd yerlərinə qayıtmaq inamını daha da gücləndirir. Festival-konqresin təşkili üçün muxtar respublika rəhbərliyinə, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcması rəhbərliyinə təşəkkür edirik.

## Qərbi Azərbaycana yollar Naxçıvandan keçəcək



*Telli Pənahqızı*

– Çox sevinirəm ki, təkcə Bakıda deyil, başlanğıcı Bakıdan götürülən Qərbi Azərbaycana qayıdış konsepsiyası artıq bölgələrimizdə də davam edir və xüsusilə də Naxçıvanda. Çünki Naxçıvandan əlinizi uzatsanız, Qərbi Azərbaycana çatacaq, bizim yollarımız elə Naxçıvandan keçəcək. Güman edirəm ki, Qərbi Azərbaycanı öyrənmək, yeni nəslə tanıtmaq, təbliğ eləmək çox vacibdir. Çünki indiki nəsil artıq bir qədər yadırğayıb. Üzərindən illər keçib, məsafə var bizim aramızda və yeni nəsil dədələrindən, babalarından eşitmədiklərini bu konfransda eşitdilər. Çox yığcam, çox maraqlı, həm də əhatəli bir konfransdır. Təkcə Azərbaycanın qərbinin tarixi deyil, mədəniyyəti, mətbəxi, adət-ənənələri də öz əksini tapır. Batabat yaylağında qurulan çadırlar, hər birinin balaca maketi yaradılan mahallarımızın qayıdışının da təminatçısı idi. Hər dəfə xəbərlərə baxanda, oradakı yazıları görəndə fikirləşirdim ki, ilahi, gün o gün olsun ki, biz o yerlərə qayıdaq. Bir vaxtlar biz arzu edirdik ki, kaş Qarabağa qayıdaq, kaş Şuşa yenidən bizim olsun və haradasa alçatmaz kimi baxırdıq. Allaha şükürlər olsun ki, bizim yuxularımız gerçəkləşir. Gün gələcək Azərbaycanın bir parçası olan Qərbi Azərbaycan da öz yurddaşlarını qəbul edəcək və biz ermənilər kimi müharibə ilə, top-tüfənglə sahib olmaq niyyətində deyilik. Bu son iki yüz ildə Qərbi Azərbaycandan dəfələrlə deportasiya olunmuş xalqımız, millətimiz. Hər dəfə də öz ləyaqətini qoruyub, heç vaxt başqasının torpağında gözü olmadığını bildirib. Cənab Prezident də deyir, biz o yerlərə ləyaqətlə qayıtmalıyıq. Çünki oralar bizim dədə-baba torpağımızdır. Və bu dədə-baba torpağı anlayışını gənclərə aşılamaq çox böyük əhəmiyyət daşıyır və böyük rol oynayır. Mənə elə gəlir ki, Naxçıvandan başlayan bu yol digər bölgələrdə də davam edəcək. Hər yanda bizim parçamız var. Azərbaycanın bütün rayonlarında səpələnmiş qərbi azərbaycanlılar var. Mən xüsusilə onların hər birinə qonaqpərvərlik göstərən, hər kəsə qol açan, qoynuna alan soydaşlarımıza təşəkkür edirəm. Onlar həmin çətin günlərdə bizi qarşıladılar, bizə ev verdilər, çörək, sığınacaq, yer verdilər. "El elə sığar, ev evə sığmaz" ,– deyiblər. Amma ayrı-ayrı ocaqlarda sığınacaq verən soydaşlarımız tapıldı. Çörəklərini böldülər, bizimlə paylaşdılar. Yerlərinin, yurdlarının ağrısını unutmaq üçün boynumuza sarıldılar. Hətta müsahibə verdikcə çox təsirlənirəm. Amma bunlar bir tərəfdən də çox möhtəşəmdir.

# "Qərbi Azərbaycana qayıdış" festival-konqresindən yaddaşlarda qalanlar

## Sədası Qərbi Azərbaycanda duyulan el toyu










Xoşbəxtlik ömrə bəxş olunan sevginin ən gözəl ərməğanıdır. Həyatın gözəlliyi isə varlığına şükür etdiyin insanın qəlbində yer alıb onunla əbədi sevgiyə addımlamaqdır. Naxçıvan Dövlət Universitetinin tələbələri Elvin və Fəridə də həyatın mənasını ömürlərinin bütün anlarını bir yerdə paylaşmaqda görüb, bir-birinə bir könüldən min könülə aşiq olublar. Qəlbləri bir-birinə qırılmaz tellərlə bağlanan bu iki gəncin sevgi macərası xoşbəxt sonla nəticələndi. Valideynlərinin, ağsaqqallarının, ağbirçəklərinin, böyüklərinin xeyir-duasını alaraq ailə həyatı quran gənclərin xoşbəxt anlarına minlərlə insan şahidlik etdi. Ölkədə hər kəs bu cütlüyün özünəməxsus toy məclisindən danışdı. Naxçıvanın dilbər guşəsi olan Batabat yaylağında böyük mağar quruldu, Oğuz elinin igidləri, xanım-xatın qızları onların səadətlə çiçəklənən xoşbəxtliyinin avazına toplaşdı.

Bu toyu özünəməxsus edən başqa bir məqam da var idi: əslən Qərbi Azərbaycandan olan bu cütlüyün gözündə, könlündə nə qədər xoşbəxtlik sezilsə də, bu xoşbəxtliyin dərin qatlarında öz hökmünü sürən doğma yurd həsrəti də var idi. Naxçıvanda keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresi çərçivəsində təşkil olunan toy mərasimi iki gəncin və onların doğmalarının, həmyerlilərinin yurd həsrətini daha da alovlandırdı. Tarın, kamanın, sazın, zurna-davulun səsi Batabatın əzəmətli dağlarında əks-səda verdi, bu zirvələrin arxasında yerləşən Qərbi Azərbaycan torpaqlarında duyuldu, eşidildi. Elvin və Fəridə o torpaqları görməsə də, nənə-babalarından, qohum-əqrəbalarından eşitdikləri onlarda Vətən, yurd sevgisinin bir məhəbbəttək alovlanmasına yetmişdi. Festival çərçivəsində qurulmuş Qərbi Azərbaycan mahallarına aid mağarlar, bu çadırlarda nümayiş etdirilən hər bir əşya onlara elə ilk başdan doğma göründü. Elindən-obasından didərgin düşərək başqa bölgələrdə məskunlaşmağa məcbur qalmış həmyerlilərinin yaşatdığı adət-ənənələr, folklor və mətbəx nümunələri xəyalları gerçəkləşən Elvin və Fəridənin xoşbəxtliyinə rəngarəng çalarlar qatmışdı.

Qərbi Azərbaycanın toy adət-ənənələrini təfərrüatları ilə xatırladan bu toy bizi xəyalən olduğumuz yaylağı əhatə edən dağların arxasında yerləşən dədə-baba yurdumuza apardı. Elçilikdən tutmuş nişan taxmaya, paltar biçmədən tutmuş çörəküstüyə, xınayaxdıdan tutmuş gəlin köçürməyə qədər dədə-baba adətlərimiz olan bu mərasimləri hər kəs böyük heyranlıqla izləyirdi.

İrəvan çuxurundakı bütün toylar kimi, gəlinin həsrətlə öz yarını gözlədiyi Vedibasar mahalında da qara zurna, ney və nağara ilə keçirilirdi. Əvvəlcə böyüklərin xeyir-duası ilə elçilik və nişan taxma mərasimi oldu. Sonra oğlan evindən qız evinə xına xonçası gətirildi, insanların heyranlıqla izlədiyi paltar biçmə adəti isə özünəməxsusluğu ilə seçildi. Toyda xınayaxdı mərasimi şənliklə qeyd olundu, oğlan evi çalıb-oynadıqdan sonra həmin xınadan götürüb, öz mahalına – Zəngəzura qayıtdı, xınayaxdı mərasimi burada davam etdi. Qərbi Azərbaycan adəti ilə toyda da mağarı toybaşı idarə edirdi. Yallı isə bu el toyunun əvəzolunmaz oyunu idi. Qara zurnanın sədası altında yallı gedib vəcdə gələn qonaqların sevinci toya başqa bir şənlik qatırdı. Qərbi Azərbaycan mətbəxinin özünəməxsus təamları ilə mağardakı süfrələr bəzənmişdi. Qonaqlar süfrə arxasında əyləşib, mağarı izləyir, əl çalır, şabaş verir, qol götürüb rəqs edirdilər. Tarixləşən el toyunda sevincdən parıldayan gözlərdən sezilirdi, hər kəsin qəlbindəki qanad açıb göylərə ucalan o arzu: Gün o gün olsun, Şörəyel, Dağ Borçalısı, Dilican, Kərbibasar, Qırxbulaq, Göyçə, Sərdarabad, İrəvan, Zəngibasar, Dərələyəz, Zəngəzur mahallarında qız köçürüb, oğul toyu edək!

✍ **Gülcamal TAHİROVA**

## Qərbi Azərbaycan ədəbiyyatı






Xalqımızın milli yaddaşında özünə yer tutmuş ədəbi nümunələr arasında Qərbi Azərbaycan ədəbiyyatının rolu olduqca böyükdür. Tarixi minilliklərə söykənən bu ədəbiyyat nümunələri uzun illər qərbi azərbaycanlıların həyatından, onların cismindən, ruhundan qidalanmış, qoşmanın, gəraylının lətif məzmunundan bəhrələnmiş, bir-birindən maraqlı şeirlərlə, poemalarla, roman və povestlərlə soydaşlarımızın düşüncəsinə sirayət etmişdir. Batinində yeri, göyü, mənəviyyatı, saf duyğuları, munis hissləri tərənnüm edən, insanları elmə, maarifə səsləyən Qərbi Azərbaycan ədəbiyyatı həm də xalqımızın milli kimliyini təsdiq edən, o cümlədən yurdumuzun o tayında azərbaycanlıların yaşadığını kamil sözün qüdrəti ilə sübuta yetirən ən dəyərli mənbədir. Bu ədəbiyyatın təsvir etdiyi yurd indi bizdən cismən uzaqda olsa da, onun qəlbimizdə tutduğu yer, xalqımıza aşıladığı hisslər, duyğu və düşüncələr mənən çox yaxındadır…

Qərbi Azərbaycan ədəbiyyatı dedikdə gözlərimiz önündə Aşıq Ələsgər poeziyasından başlayaraq formalaşan böyük aşıq mədəniyyəti, Eyyub Abbasovun "Zəngəzur" romanından başlayaraq vərəqlənən maraqlı nəsr əsərləri canlanır. Lakin diqqət etsək, görərik ki, yurdumuzun bu guşəsindən pərvazlanan ədəbi nümunələrin sayı istər günümüzdə, istərsə də ötən tarixi dönəmlərdə çox olmuşdur. Son dövrlərdə qələmə alınan ədəbi nümunələrdən isə Elnarə Akimovanın "Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdış konsepsiyası: məsuliyyətimiz və vəzifələrimiz", Alqış Həsənoğlunun "Prezident mütləq deyəcək: "Birinci kəndimiz Nüvədi!", Səyyad Aranın "İrəvana gedən yollar" (romandan parça), Məmməd Orucun "Göyçədən Türk dünyasına" (Aşıq Ələsgər haqqında), Xalq şairi Vahid Əzizin "Dərələyəz" (poemadan parça), İftixar Piriyevin "Qədim, fədakar sənət ocağı – İrəvan Dövlət Azərbaycan Dram teatrı", Paşa Qəlbinurun "İrəvanda qalan uşaq" (esse), Fəridə Səfiyevanın "Milli varlığına bağlı alim – Heydər Hüseynov", Mətanət Vahidin "Mirəli Seyidovun mifoloji tədqiqatları çağdaşlıq müstəvisində", Kənan Hacının "Ədəbiyyatımızda "köç" ağrısı (Fərman Kərimzadə, Məmməd Oruc və Hidayətin əsərləri əsasında) və digərlərinin maraqlı yazılarını xüsusilə qeyd etmək lazımdır. Çünki bu ədəbiyyat nümunələrinin hər biri Azərbaycan tarixinin, incəsənətinin real həyatından bəhrələnərək formalaşmış, tarixi həqiqətləri bu gündən gələcəyə aparacaq böyük bir missiyaya xidmət etmişdir. Biz inanırıq ki, Qərbi Azərbaycan mövzusu bundan sonra da nasirlərimizin, şair və yazıçılarımızın həyatında böyük yer tutacaq və bu yurd yerinə qayıdış sözün qüdrəti ilə düşüncələrə, zehinlərə hopacaq!

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Hər sədası mən azərbaycanlıyam deyən Qərbi Azərbaycan musiqisi











Tarixboyu başqalarının torpağına göz dikib, öz havadarlarının köməyi ilə Azərbaycan torpaqlarına yerləşdirilən ermənilərin bizdən mənimsədikləri ən mühüm sahələrdən biri də musiqidir. Azərbaycan xalq musiqisi ilə toy şənliklərini keçirən, xalq musiqimizin təsiri altında tərbiyə olunaraq nəsilbənəsil dəyişən ermənilər bu gün həyasızcasına həmin musiqinin erməni folkloruna aid olduğunu sübut etməyə çalışırlar. Bunun üçün onlar uzun illər boyu Azərbaycan xalq mahnılarının şeir mətnlərini erməni dilində yazılmış mətnlərlə əvəzləmiş, rəqs melodiyalarımızın adlarını dəyişmiş, xalq musiqimizin melodik məzmununa yad intonasiyalar daxil etmişlər. Xalq rəqslərimizin ermənilər tərəfindən mənimsənilməsində ən zərərçəkmiş janrlarından biri yallılar olmuşdur. Öz doğma yurdlarından qovulan insanlar, yallıların gediş hərəkətlərini bilənlər pərakəndə şəkildə Azərbaycanın müxtəlif bölgələrinə səpələndiyi üçün uzun illər boyu oynanılmayan İrəvan yallılarımızın zaman ötdükcə həm xoreoqrafik gediş hərəkətləri, həm də musiqi məzmunu unuduldu. Sovetlər dönəmində tamamilə yaddan çıxdı.

Həmin yallıların yenidən bərpa edilməsi üçün Azərbaycanın bütün bölgələrini əhatə edən tədqiqatlar aparılmasına icazə verilmədi. Bundan istifadə edən ermənilər isə vaxtilə azərbaycanlılardan öyrəndikləri yallıların adlarını dəyişərək, onlara yeni xoreoqrafik quruluş verərək oynamış və bu gün də bir çox dünya ölkələrinin səhnələrində erməni rəqsi kimi nümayiş etdirməkdədirlər. Lakin Azərbaycan müstəqillik qazandıqdan sonra Qərbi Azərbaycan yallıları da dərindən araşdırıldı. Alimlərin tədqiqatları nəticəsində "Ağbaba", "Ağbulaq", "Ala gülbəngi", "Babacan" , "Teymurağa", "Çəçələ barmaq", "Çəmbərək", "Daban durma", "El yallısı", "Şirxanı", "Taciri", "Tamaşa", "Dəsmal", "Tərs yallı", "Qarabağı", "Üç pəncə", "Axsaq yallı" kimi bir çox yallı araşdırılaraq mədəni irsimizə geri qaytarıldı. Qeyd edək ki, bu sahədə işlər dövlətlərarası müstəvidə də təhlil olunduqdan sonra Şərur-Dərələyəz bölgəsinə aid olan iki yallı – "Köçəri" və "Tənzərə" 2018-ci ilin 26 noyabr-1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilmiş qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilib.

Aşıq yaradıcılığı da Qərbi Azərbaycan mədəniyyətinin əsas hissəsini təşkil edir. Vaxtilə İrəvan aşıqlarının xoş sədası Dərbənddən Ərzuruma, Qarabağdan Şirvana, Naxçıvandan Kərkicahana kimi gedib çıxmışdı. Xanlıqların ərazilərində keçirilən toy mərasimlərində, el bayramlarında eldən-elə qonaq gələn aşıqlar iştirak edərdilər. Onların saz havası ilə səsləndirdiyi qoşmalar, gəraylılar bu gün də dillərdə əzbərdir. Qərbi Azərbaycanın ayrı-ayrı mahallarında – İrəvan, Zəngəzur, Dərələyəz, Göyçə, Qaraqoyunlu, Dərəçiçək, Loru və Ağbabada yaşayıb-yaratmış ustad sənətkarların zəngin ədəbi irsi soydaşlarımızın dədə-baba yurdu olan ərazilərdə sənət ənənəsi, tarixi-mədəni prosesin inkişaf dinamikası, coğrafi arealın hansı milli-mənəvi zənginliyə köklənməsi haqqında aparılan tədqiqatlardan məlum olur ki, XVI əsrdə yaşayıb-yaratmış Miskin Abdaldan sonra bir çox böyük saz-söz ustadlarının – Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Məhərrəm Alçalı, Ululu Kərim, Çobankərəli Cəfər kimi sənətkarlar erməni təcavüzü nəticəsində öz dədə-baba yurdlarından didərgin düşüblər.

Onların mirasını qoruyub saxlayan və bu gün Azərbaycanın müxtəlif guşələrində yaşayan aşıqlarımız vardır ki, həmin sənətkarlar öz qədim, köklü sənətlərini davam etdirirlər. Bu gün Azərbaycanın müxtəlif yerlərində yaşayan qərbi azərbaycanlılar öz dədə-baba yurdlarına dönüb, əl-ələ verib Dərələyəzdə "Tənzərə" yallısını getməyə, Göyçədə Aşıq Ələsgərin davamçılarının sinəsinə basdığı qədim sazın simlərindən süzülən musiqi sədalarını dinləməyə, Aşıq Alının davamçılarının deyişməsini eşitməyə daha çox yaxınlaşıblar. Çünki oğullarımızın igidliyi sayəsində biz doğma Qarabağımıza qayıtdıq. Şuşada, Laçında, Zəngilanda yanan çıraqlar Qərbi Azərbaycan torpaqlarına gedən yollara da işıq saldı.

✍ **Ramiyə ƏKBƏROVA**





## Ümidli baxışlarla çəkilən rəsm əsərləri



Azərbaycanın çoxəsrlik zəngin ənənələrə malik olan təsviri sənət tarixi xalqımızın həyatında yaşananların bədiiləşdirilməsi baxımından olduqca böyük əhəmiyyətə malikdir. Bu gün də sənətkarlarımız öz dövrünün aynası rolunu oynamağa çalışır, tariximizdə baş verən hadisələri öz əsərlərində əks etdirib, canlı salnamə obrazı yaradırlar. Vətənpərvərlik mövzusunda işləyən sənət adamları onların yaratdığı əsərlərin gələcək nəsillər üçün bir töhfə olduğunu unutmurlar.

Rəngkarlıq sənətində öz imzasını qoyan Azərbaycan rəngkarlığının ilk akademik realist rəssamı Bəhruz Kəngərli dövrünün belə sənət fədaisinə çevrilərək azərbaycanlıların təlatümlü taleyini əks etdirən rəsm əsərlərini bugünkü günümüzə miras buraxmışdır. Onun bir vətənpərvər rəssam kimi Qərbi Azərbaycandan Naxçıvana pənah gətirən qaçqınları, onların faciəvi simalarını əks etdirməsi özü bir tarix daşıyıcısıdır. Bəhruz Kəngərlinin XX əsrin əvvəllərində əbədiləşdirdiyi "Qaçqınlar" adlı silsilə əsərləri erməni təcavüzünün silinməz izlərini özündə ehtiva edən ifşaedici sənət nümunələridir. Buna görə də Bəhruz Kəngərlinin yaratdığı qərbi azərbaycanlı qaçqınların portretləri 1918-1920-ci illərdə xalqımızın başına gətirilən müsibətləri daimi olaraq xatırlamaq baxımından heç vaxt əhəmiyyətini itirməyəcək bir bədii irsdir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycana qayıdış konsepsiyası da qərbi azərbaycanlıların öz ata-baba yurdlarına qovuşması üçün əhəmiyyətli bir strateji xətdir. Artıq iki ildir ki, Naxçıvanda "Qərbi Azərbaycana qayıdış" adlı festival-konqres təşkil olunur və elmi materiallarla yanaşı, müxtəlif sənətkarlıq nümunələri bu festival-konqreslərin işində mühüm rol oynayır. Belə ki, naxçıvanlı rəssamlar Qərbi Azərbaycan tarixini, abidə və folklorunu, oranın bir vaxtlar yaşam tərzinə çevrilmiş adət-ənənələrini öz kətanları üzərinə həkk edirlər. Təbii ki, bu, tarixi fotoşəkillər və öz yurdlarından didərgin düşmüş qərbi azərbaycanlıların söylədikləri faktlar əsasında baş tutur.

Bu il Zəngəzur Milli Parkının Batabat yaylağında baş tutan "Qərbi Azərbaycana qayıdış" adlı festival-konqresdə rəssamlarımız buradan üzü Qərbi Azərbaycana doğru dayanıb etüdlər çəkdi, həmin tarixi əbədiləşdirib sənət əsərləri yaratdılar. Naxçıvan Rəssamlar Birliyinin üzvləri və Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim-tələbə heyətinin birgə ərsəyə gətirdiyi rəsm əsərləri və digər sənətkarlıq nümunələri, həqiqətən də, festival iştirakçılarında xoş təəssüratlar yaratdı. Bunu rəsm əsərlərinə tamaşaçı marağından da hiss etmək olurdu. Kətan üzərinə həkk olunan yurd yerimiz, Qərbi Azərbaycanın təbiət gözəllikləri rəssamların fırçasında bir daha ruhumuzu oxşadı, sənət əsərlərinə çevrildi.

Festivalda Qərbi Azərbaycanın tarixi-memarlıq abidələri də unudulmamışdır. Naxçıvan Dövlət Universiteti Memarlıq və mühəndislik fakültəsinin müəllim-tələbə heyətinin hazırladığı Qərbi Azərbaycan ərazisində olan tarixi abidələrin maketləri, Pedaqogika fakültəsinin rəsm və əl işlərindən ibarət nümunələrinin sərgiləndiyi stendlər festival iştirakçılarının böyük marağına səbəb olub.

Burada Heydər Əliyev Uşaq-Yaradıcılıq Mərkəzinin, Turist Diyarşünaslıq və Texniki Yaradıcılıq mərkəzlərinin, STEAM Təlim-Tədris Mərkəzinin və bütün rayonlardan olan məktəbdənkənar müəssisələrin dərnək üzvlərinin rəsm və əl işləri sərgilənib.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən mədəniyyət evlərinin əməkdaşları festival boyunca xalqımızın keçmişini müasir günümüzdə yaşatmaq üçün folklor nümunələri, dekorativ-tətbiqi sənət növlərini nümayiş etdirdilər. Həmçinin festival-konqresdə Qərbi Azərbaycana aid xalq yaradıcılığı nümunələri də əyani olaraq sərgiləndi.

Bir sözlə, Naxçıvanın füsunkar təbiət guşəsi Batabatda keçirilən "Qərbi Azərbaycana qayıdış" adlı festival-konqres unudulmaz təəssüratlar və yaradıcılıq nümunələri ilə yadda qaldı. İnanırıq ki, festival zamanı naxçıvanlı sənətkarların belə yaradıcılıq nümunələri, çoxumuzun bir dəfə də olsun ayaq basmadığı qədim yurd yerlərimizə ümidli baxışları ilə çəkdikləri həmin rəsm əsərləri, bir gün elə dağların o tayında, Qərbi Azərbaycanda sərgilənəcək.

✍ **Aidə İBRAHİMOVA**





# Dağlar arasından, illər arxasından ucalan sülhə çağırış, yurda qayıdış sədaları



✍ Nail ƏSGƏROV

On illər, yüz illər boyu yaşananlara, yaşadılanlara rəğmən savaşa deyil sülhə, barışığa çağırış əli uzadıldı bir daha, yurda qayıdış sədaları ucaldı yenidən. Dövlətçilik tariximizdə mühüm, həlledici rol oynayan, mütərəqqi ideyaların pərvəriş tapdığı, qərarların verildiyi 100 yaşlı bir diyardan ucalması mötəbərliyini daha da artırdı bu sədaların. Ötən əsrdə öz ata-baba torpaqlarından – Dərələyəzdən, Göyçədən, İrəvandan didərgin düşənlərə qol-qanad, qucaq açan Naxçıvan onların geri dönüşü, qayıdışı üçün növbəti dəfə xeyir-dua qapısı açdı, bu mötəbər missiyanı uğurla yerinə yetirmək yolunda əmin addımların atılmasına vəsilə oldu, şahidlik etdi...

Bəli, ötən həftənin 2 günü – iyunun 21-22-si haqqın, ədalətin bərpa səsi ucaldı Şərqin qapısından bütün cahana. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresi ictimai-siyasi əhəmiyyəti, elmi-mədəni dəyəri ilə öz möhürünü vurdu Qalib Liderin Qərbi Azərbaycana qayıdış konsepsiyasının icrası prosesinə. Artıq ikinci dəfədir, baş tutan bu möhtəşəm tədbirin öncəkindən fərqli cəhətləri, üstün məziyyətləri də kifayət qədər oldu desək, yanılmarıq. İlk olaraq festival-konqresin buraya üz tutan, gözü televiziya ekranlarında, mediada, sosial şəbəkələrdə olan hər kəsin diqqətini məkan olaraq çəkdiyini əminliklə söyləmək olar. Ev sahibliyi kimi tarixi Qərbi Azərbaycan torpaqlarına ən yaxın məsafədə yerləşən Zəngəzur Milli Parkı-Batabat yaylağının seçilməsi bu baxımdan heç də təsadüfi deyildir. Qərbi Azərbaycanın 11 mahalını əks etdirən çadırların qurulması və adət-ənənələrin olduğu kimi icrasını nəzərə alsaq, festival-konqresin nəzəridən daha çox praktiki tərəfləri ilə yaddaşlarda iz buraxdığını, əhəmiyyət daşıdığını deyə bilərik...

Rəsmi hissədən tutmuş bədii kompozisiyalara, plenar çıxışlara, görüşlərədək hər bir nümayişin, çıxışın, söhbətin detalında özünəməxsusluq, fərqlilik özünü göstərdi. Xalqımızın tarixi keçmişinə, genetik yaddaşına səyahət zamanı milliliyə hörmət, irsə ehtiram əsas süjet xəttinə çevrildi bənzərsiz çalarlarla zəngin tədbirin. "Dədə Qorqud" obrazının yaradılması, "Kitabi-Dədə Qorqud" dastanından nümunələrin çəkilməsi, hündür təpələrin üzərində üç tonqalın qalanması ilə qədim soykökə bağlılığın önəmini aşıladı qonaqlarına festival-konqres. Bənzərsiz mətbəx, folklor nümunələri, aşıq havaları, kompozisiyalar, xalq oyunları, tamaşalar, məşhur idman oyunları, rəsm, memarlıq sərgiləri, at yarışları, pəhləvanların güləşi, yallılar milli-mənəvi dəyərlər, adət-ənənələrə sadiqliyin, sahibliyin ifadəsinə çevrilməklə Ulu Öndər Heydər Əliyevin bütün dövrlər üçün aktuallığını qoruyan çağırışını xatırlatdı: ***"Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın".***

Festival-konqresin məxsusi məqamlarından biri, heç şübhəsiz, Əlahiddə Ümumqoşun Ordunun Şuşayadək Zəfər yolu keçən qəhrəmanları tərəfindən Şuşaya sancılan və Zəfər paradında nümayiş etdirilən Zəfər Bayrağının təntənəli marşla tədbir məkanına gətirilməsi oldu. Hər bir azərbaycanlının vücudunu qürurla ehtizaza gətirən bu anlar illər öncə Prezident cənab İlham Əliyevin söylədiyi, gerçəkləşən qətiyyətli fikirləri bir daha çınlatdı yaddaşlarda: ***"Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət Bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan Bayrağına!"*** Bəli, dövlət başçısının illər öncəki sözlərinin təntənəsini yaşayan hər bir qərbi azərbaycanlı festival-konqresin işinin əsas qayəsinə, devizinə çevrilən ***"Biz torpağımıza tankla, topla deyil, dinc şəkildə qayıtmaq istəyirik"*** ideyasının da tezliklə reallaşacağına bir daha əmin oldu...

Festival-konqresi daha cəlbedici, maraqlı edən amillərdən biri də böyükdən-kiçiyə hər kəsi nostalji duyğulara kökləyən illərlə qorunub yaşadılan toy ənənələrinin nümayişi idi. Qərbi Azərbaycan əsilli iki gəncin toy məclisində "Elçilik", "Nişan taxma", "Paltar biçmə", "Çörəküstü", "Xına", "Gəlin köçürmə" kimi adətlərin təbliği orta, yaşlı nəsillə gənclər arasında mənəviyyat körpüsü yaratmaqla milli-mənəvi dəyərlərimizə qayıdışa xidmət etdi. Qərbi Azərbaycan mətbəxinə məxsus 60-dan çox milli yemək, 44 çeşiddə meyvə və meyvə qurusu, 30 adda müalicəvi bitki, 94 növdə mürəbbə, 12 adda bitki çayı, 13 növdə şirniyyat, 20-dən çox adda xoşab və meyvə şirəsinin çıxarıldığı kulinariya sərgisi məxsusi dad-tamı ilə qonaqlarda böyük maraq oyatmaqla xalqın öz genetik varidatına, irsinə sahiblik hissinin önəmini, vacibliyini təlqin etdi. Bölmə iclaslarında "Qərbi Azərbaycan: tarix, həqiqətlər və faktlar", "Qərbi Azərbaycanın mədəni sərvətləri", "Qərbi Azərbaycan: dil faktları və toponimika", "Qərbi Azərbaycan ədəbiyyatı və folkloru", "Qərbi Azərbaycanda elm və təhsil", "Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri", "Qərbi Azərbaycanın təbii sərvətləri", "Qərbi Azərbaycanın mədəni sərvətləri" mövzularında məruzələrdə, təqdimatı keçirilən elmi əsərlərdə tarixi yerlərin, abidələrin, adət-ənənələrin, milli, təbii sərvətlərin, mədəniyyətin, ədəbiyyatın, folklorun tədqiqi, araşdırılıb öyrənilməsi, öyrədilməsi, vandalizmə məruz qalan yurd yerləri, dəyişdirilən yer adları ilə bağlı məsələlərə toxunuldu, yeni yanaşmalar, tezislər irəli sürüldü...

Festival-konqres çərçivəsində Ordubad rayonunda qərbi azərbaycanlılarla görüş, Zəngəzur dəhlizinin astanası sayılan Kotam kəndinin pik nöqtəsi və Salamməlik stansiyası istiqamətində irəli atılan rəmzi addımlar həm Qərbi Azərbaycana qayıdışa, həm də Naxçıvanı ölkəmizin digər ərazisi ilə birləşdirəcək Zəngəzur dəhlizinin açılması yönündə verilən mühüm mesajlar idi. Ölkə başçısının qətiyyətli mesajları: ***"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar"... "Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır".***

Ümumilikdə, yekun fikir olaraq vurğulayaq ki, Naxçıvanda ikinci dəfə keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresi dövlət başçısının Qərbi Azərbaycana qayıdış konsepsiyasında qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində mühüm addımlardan biri kimi təqvimə silinməz, qızıl hərflərlə həkk olundu. Qərbi Azərbaycanın bir addımlığından, dağlar arasından ucalan, illər arxasından gələn sülhə çağırış, yurda qayıdış sədalarının tezliklə İrəvanda, Göyçədə, Dərələyəzdə eşidilməsi, Zəngəzur dəhlizinin astanası – qapısı sayılan Ordubadda atılan rəmzi addımların gerçəklik işığına çevrilərək yolumuzu aydınladıb bizi Vətəndən Vətənə aparması diləyi ilə...

# Qayıdışın addım səsləri



Ruhiyyə RƏSULOVA

Bu qayıdış bir başqa olacaq. Silahla, topla, atəş səsləri ilə deyil, gül-çiçəklə, musiqi sədaları ilə olacaq. Təkəli, Əyriqar, Qonaqgörməz, Səbətkeçməz hələ belə büsat görməmişdi. Həmin gün Batabatı dövrələyən Dərələyəz və Zəngəzur sıra dağları yallının birlik çağırışında baş-başa verdi. Sanki dağlar, qayalar da öz əzəmətini nümayişə çıxmışdı, onlar da yurd sevgisini sərgiləmək üçün rəqabətə girmişdilər. Atlılar əllərində məşəl uca dağın başına qalxdılar, 3 tonqal qaladılar, lap "Kitabi-Dədə Qorqud" dastanında olduğu kimi... Bu torpaqlara can vermiş, uğrunda qan tökmüş dədələrin miras buraxdığı ənənələri unutmadıq, unutmarıq.

Zəngəzur Milli Parkının ərazisinə məxsus Batabat yaylağında 11 çadır qurulmuşdu: İrəvan, Sərdərabad, Dərələyəz, Zəngəzur, Göyçə, Şörəyel, Dilican, Gərnibasar, Qırxbulaq, Kərbibasar, Vedibasar.

Hər çadır adını daşıdığı mahalın adət-ənənəsinə uyğun bəzədilmişdi. Milli koloritli çadırların iç dizaynı xalçaçılıq məmulatları, məişət əşyaları, bir sözlə, keçmişdən süzülüb gələn dəyərlərlə, necə deyərlər, boyanmışdı. Bu görünüş istər-istəməz insanı keçmişə səyahətə aparır, nənələrin şirin laylasını, babaların xeyirin şər üzərində mütləq qələbəsi ilə bitən nağıllarını, qəhrəmanlıq motivləri ilə dolu dastanları xatırladırdı. Burada hər şey fərqli idi deyə bilmərəm, çünki sərgilənən nə var idisə, milli dəyərlərimizə, soykökümüzə dayanırdı.

Məlumdur ki, Naxçıvan ta keçmiş zamanlardan üzü bəri (əsasən də, 1905-ci ildən) Qərbi Azərbaycandan məcburi köç edənlərin, qaçqınların pənah, ümid yeri olub. Kompakt şəkildə daha çox Culfa, Ordubad, Şahbuz rayonlarında məskunlaşsalar da, muxtar respublikamızın, demək olar ki, bütün bölgələrində qərbi azərbaycanlılara rast gəlmək mümkündür. Onlar bu gün də sevə-sevə adət-ənənəni yaşatmaqdadırlar. Hansı ki biz Şörəyel çadırı önündə, Şərur rayonunda məskunlaşmış qərbi azərbaycanlıların yallısını izlədik. Zəngəzur çadırı önündə saz havasından feyziyab olduq, hələ də yaşadılmaqda olan Çövkən atüstü oyununu maraqla izlədik. Ordubadın Parağa kəndində kompakt şəkildə yaşayan qərbi azərbaycanlılar meydanda cövlan etdilər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Şuşada döyüşmüş cəngavərləri Şuşaya sancılmış və Zəfər paradında nümayiş etdirilən Zəfər bayrağını səhnəyə gətirəndə qəlbimiz bir ayrı fərəh hissi ilə döyündü. Alqış sədaları, gözlərdəki işıq, çırpınan ürəklər qəhrəman Azərbaycan əsgəri üçün idi. Qəlbləri riqqətə gətirən vətənpərvərlik mahnıları oxundu.

Bu festival həm də sarsılmayan birliyimizin göstəricisi idi. Hamı bir oldu, birlik oldu. Qərbi azərbaycanlıların yurd sevgisinə, qayıdış inamına şərik olub qol qaldırıb oynadıq. Bu şənliyin, əzəli yurd yerlərimizə çağırışın sədaları, əlbət, dağların o biri üzündə də əks-səda verdi...

Hər çadırın önündə rayonların folklor kollektivləri xalq mahnıları, oyunları, aşıq havaları, rəqs nömrələri və mətbəx nümunələri ilə Qərbi Azərbaycan mahallarının ümumdəyərləri kontekstindən çıxışları, sadəcə, təqdirəlayiq idi.

Oğuz elində əsl toy-bayram idi. Əslən Qərbi Azərbaycandan olan iki gəncin keçirilən toy mərasimi, icra olunan adətlər, bütövlükdə, ruhumuzu oxşadı. Bir anlıq keçmişə qayıtdıq. Kimisi Vedidə, Qaraqayada, Sallıda, Horbadıqda, Comərdlidə, Urudda, Ərəfsədə, Ağdüdə keçirdiyi uşaqlığını, gəncliyini xatırladı. Ruhən pərvazlandıq.

Vətən müharibəsinin bəxş etdiyi Zəfər xalqımızda nə qədər böyük ümidlər yaradıb, illərlə Qarabağ ağrısının arxasında qalmış tarixi gerçəkliklərə işıq salıb. Beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan Qərbi Azərbaycana qayıdış konsepsiyası qəbul olunub. İdeya müəllifi Prezident cənab İlham Əliyev olan bu konsepsiyanın işığında mühüm tədbirlər həyata keçirilir. Naxçıvanda ikincisi baş tutan "Qərbi Azərbaycana qayıdış" festival-konqresinin Batabatda keçirilməsi də təsadüfi deyildi. Bu yaylaq bir zamanlar Naxçıvana pənah gətirən qərbi azərbaycanlılara körpü olub. Biçənək aşırımından üzü bəri gələnlər indi yaylaqda birlik nümayiş etdirir. Dağların o biri üzü də Vətəndir. Rəmzi mənası yurd yerlərini sevən qərbi azərbaycanlıların sevgisi, həsrəti qədər dərin və ülvidir…

Bu festival həm də dünyaya bir mesaj idi: sülh mesajı. Biz müharibə istəmirik, əzəli torpaqlarımıza – Qərbi Azərbaycana, haqqımız olan torpaqlara dinc yolla qayıtmaqdır amalımız. Bərbad olanları abad etməkdir. Yurdu yaşatmaq, insanlığı yaşatmaqdır. Bu dünyada ədalətin, haqqın təntənəsinin var olduğunu sübut etməkdir! Sülhlə, qan tökmədən haqqa çağırışdır.

Ulu Dədə Qorqudun dili ilə desək, çağlayıb axan sularımız qurumasın, qanadlarımız qırılmasın. Uca dağın ocaqları həmişə yanar dursun!

# Özünəməxsusluğu ilə seçilən Qərbi Azərbaycan kulinariyası



Qərbi Azərbaycan mətbəxi dedikdə ilk öncə zəngin saray mətbəxi, onun tarixi mədəniyyəti, etikası göz önünə gəlir. Bu mətbəxin əsasını təndirdə, sacda, ocaqda bişən yeməklər təşkil edir. Qərbi Azərbaycanın hər bölgəsinin özünəməxsus yeməkləri var. Şahbuz rayonunun Batabat yaylağında keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresində Qərbi Azərbaycan mətbəxinə aid müxtəlif yemək nümunələri sərgilənib.

Festivalda diqqəti çəkən İrəvan xanlığı bölgə mətbəxini digər bölgə mətbəxlərimizlə – Tovuz, Qarabağ, Şamaxı, Şəki, Ərdəbil və başqaları ilə müqayisə etsək, görərik ki, İrəvan bölgə mətbəximiz digər bölgə mətbəxlərimizdən daha fərqlidir. Qərbi Azərbaycan təamları haqqında dövrün şairlərinin yazdığı bir neçə şeirlər də olub. Bunlardan biri də Aşıq Ələsgərdir ki Göyçə mətbəxini belə tərənnüm edir:

*Göyçənin qonağa çoxdu hörməti,*
*Qaysava, qayğanaq verir ləzzəti,*
*Plov, dolma, kabab, əmliyin əti,*
*İnsaf elə tək motaldan danışma.*

Elə biz də festival çərçivəsində vaxt tapıb Qərbi Azərbaycan İcmasının İrəvan mətbəxi tədqiqatçısı Vəsilə Əkbərovadan Qərbi Azərbaycana aid kulinariya nümunələri haqqında ətraflı məlumat alırıq. Müsahibimiz bildirdi ki, Qərbi Azərbaycana aid mətbəx nümunələri gələn qonaqlara əyani şəkildə göstərilərək dadına baxılır və qiymət verilir. Festivalda iştirak edən qonaqların diqqətini daha çox Qərbi Azərbaycan mətbəxinin zənginliyi çəkir. Qərbi azərbaycanlıların kulinariyası Naxçıvan mətbəxinə çox yaxındır.

Qərbi azərbaycanlıların mətbəxinin vaz keçilməz, ən ləziz təamlarından biri boranı içərisində plovdur ki, bu festivalda ən diqqətçəkən və bəyənilən yeməklər sırasında oldu. Axtarışlarımız nəticəsində məlum oldu ki, payız aylarında bütün həyətlərdə boranı olardı və vitaminlərlə zəngin olduğunu düşünərək bu yeməyə üstünlük verirdilər. Həmçinin Qərbi Azərbaycanda ailələr çoxuşaqlı olduğundan düyü yeməklərini üstün tuturdular ki, ailənin bütün üzvləri doysun. Bu yeməyi bişirmələrinin əsas səbəbi həm doyuruculuğu, həm də vitaminli olmasıdır. Hazırlanma qaydası: boranı qulp hissəsindən qapaq şəklində bıçaqla kəsilir, içi təmizlənir. Meyvə quruları, duz, boranının içərisinə doldurulur. Sərin yerdə 5-6 saat saxlanılır. Quzu əti 35-40 qramlıq tikələrə doğranır, sonra şabalıd, ərik qurusu əlavə edilir, qarışdırılır və bişirilir (tovlanır). Düyü süzülür. Qarışıq və düyü lay-lay boranının içərisinə düzülür, üzərinə yağ, zəfəran şirəsi əlavə olunur, qapağı bağlanır. Boranının üzərinə qabığı çatlamasın deyə bitki yağı sürtülür. Təndirdə bişmə müddəti 2-3 saatdır. Hazır olduqda Qərbi Azərbaycana xas turşu növləri ilə süfrəyə bütöv halda verilir.

Müsahibimiz bildirdi ki, bununla yanaşı, xan sarayına məxsus xüsusi İrəvan mətbəxində tərxunlu səbzi plov kimi tanınan yeməyin tərkibi digərlərindən fərqlənir. Belə ki, tərkibi ət, bol kəvər, soğan, tərxun, limon duzundan ibarətdir. Və içərisinə heç bir əlavə göyərti vurulmur, bu da ondan irəli gəlir ki, Azərbaycanda təbii şəkildə yalnız iki bölgədə tərxun və kəvər bitkisi bitir. Bunlardan biri İrəvan, digəri isə Naxçıvan xanlığı olub. Florasına xas, təbii şəkildə bu iki bölgədə bitir. Qərbi Azərbaycan mətbəxinə nəzər salanda görürük ki, əriştə və düyüdən daha çox istifadə olunurdu. Məlumdur ki, bunlar həmin dövr üçün daha ucuz başa gəlir, həm də bərəkətli olduğu üçün qışa tədarük edilirdi.






Qərbi Azərbaycan mətbəxinə aid dolma nümunələri də müxtəlifdir. İrəvan mətbəxinə aid dən dolması adlandırdığımız ətsiz dolma var ki, həmin dövrdə imkanı çatmayan ailələrin süfrəsində daha çox olurdu. Dolmanı həm də müalicəvi bitki yarpaqlarından hazırlayırlar. Hansı ki əvəlik və dikcədən hazırlanırdı. Bu həm dolmanın görünüşünü gözəl edirdi, həm də müalicəvi idi. Festivalda qonaqlar tərəfindən ən çox bəyənilən soğan və döymə ətlə hazırlanan Qərbi Azərbaycan kulinariyasına xas badımcan dolması oldu.

Vəsilə xanım qərbi azərbaycanlıların qış aylarına tədarük üçün bişirdikləri qovurmadan danışdı. Bildirdi ki, keçmişdə soyuducu olmadığından təbii üsullarla yeməyi qışa saxlamaq üçün əti öz yağında qovururdular. Qovrulan əti ən az 6 ay saxlaya bilirdilər. Qovurma Qərbi Azərbaycan mətbəxinin əsas yeməyidir. Çünki bütün yeməklər, demək olar ki, onun əsasında hazırlanır. Eyni zamanda qovurmanı hər bir ailə bişirib qış üçün tədarük edirdi. Qovurma hazırlayarkən bütün qohumlar ocaq başına yığılıb bişirirdilər. Qovurmadan həm də müxtəlif yemək növləri hazırlanırdı. Belə ki, dağlardan topladıqları göyərtiləri qurudaraq qışda qovurmaya əlavə edib daha fərqli təamlar bişirilirdi. Hamının adını eşitdiyi məşhur İrəvan bozbaşı küpədə hazırlanır. Digər bozbaşlardan fərqi isə pomidor, bibər, ətin sümüyündən istifadə olunmasıdır.

Yeməklər arasında ən çox diqqətimi çəkən isə hədik oldu. Dadına baxaraq müsahibimizə hədik haqqında suallar ünvanladıq. Vəsilə xanım qeyd etdi ki, hədik Qərbi Azərbaycan mətbəxinə aid ən gözəl nümunədir. Həmin dövrdə xanımlar daha çox yeməyə qənaət etmək üçün hazırlayırdılar. Çünki hədiyi müxtəlif paxlalı bitkilərlə bişirirdilər. Əsasən, buğda, noxud, qarğıdalı, maş lobya, qırmızı lobyadan istifadə olunur. Heç bir əlavə edilmədən masaya verilir. Çox qüvvəli yeməkdir. Niyə məhz hədik, çünki dişi çıxan uşaqlara hazırlayırdılar ki, orqanizmi möhkəmlənsin. Hədiyin tərkibində çoxlu vitaminlər var. Bunu, sadəcə, həmin bölgəyə xas olan insanlar hazırlayırdılar.

Müsahibimiz qeyd etdi ki, qərbi azərbaycanlılar daha çox quru, qızartma yeməklərə üstünlük versələr də, sulu yeməklər də bişirirdilər. Masalarda ən çox yer alan əriştə şorbası, əvəlik istisi, maş şorbası və toyuq ətindən hazırlanan şorbalar kimi duru yeməklərdir.

Mövsümü olan yaz və yay aylarında isə çoxlu göyərti və yabanı bitkilər toplayaraq ya qurudub qışa tədarük edir, ya da endemik bitkilərin sıxması hazırlayırdılar. Hər bir qərbi azərbaycanlı ailənin evində mütləq müalicəvi bitki və göyərtilər olurdu. Özünəməxsusluğu ilə seçilən Qərbi Azərbaycana aid yemək nümunələrindən əlavə, müxtəlif çeşiddə şirniyyatlar da hazırlanıb təqdim olunub. Bunlardan biri də dadına doyulmayan İrəvan kətəsidir. Qərbi Azərbaycan ailələrində xüsusi hazırlanarmış. Bu kətənin hazırlanması çox asan başa gəlir. Ona görə həm cəviz, həm də umacla hazırlanıb toy, el şənlikləri və bayram süfrələrində də mütləq ki, bu şirniyyatı görmək olardı.

Həmçinin burada unudulmuş Göyçə badamburası xüsusi olaraq festival üçün hazırlanıb. Eyni zamanda festivalda şəkər lokum, qalın, İrəvan kömbəsi, qovut, İrəvan kətəsi, xüsusən bu şirniyyatlar İrəvana məxsus çay buketləri ilə təqdim olunur.

Digər şirniyyat növlərindən isə quymaq, zirətov, alana, sucuq nümayiş olunur. Əsasən, səhər yeməklərində süfrələri bəzəyirdi bu şirniyyatlar. İnsan sağlamlığı üçün faydalı olub istəyə uyğun bişirilərmiş. Qərbi Azərbaycan kulinariyasına aid ən məşhur ləzzət isə çıppadır. Vəsilə xanım deyir ki, qohum-qonşu yığılıb təndir salır və həmin təndirdə bişən xəmirdən sona qalan hissələrdən kömbə şəklində edib çıppa hazırlayırdılar.

Qərbi Azərbaycanda bitən bitkilərdən danışan Vəsilə xanım qeyd etdi ki, xalq təbabəti və dərman preparatlarının bir çoxunun tərkibində məhz Qərbi Azərbaycanda bitən bitkilərdən geniş istifadə olunub. Boymadərən, kəklikotu, həmərsin, nanə cövhəri, melisa, çobanyastığı, çaşır kimi yabanı bitkilərdən istifadə olunub. Bu şəfalı bitkilərin içərisində ən önəmli yeri çaşır bitkisi tutur. Hər il yaz mövsümündə dağları bəzəyən çaşır, əsasən, aprel ayının sonları və may ayının əvvəllərində bitməyə başlayır. Eyni zamanda baldırğan bitkisindən də dərman kimi istifadə olunur. Baldırğanı əməliyyat olunub, anesteziya (narkoz) verilən bir pasiyentə dərhal yedirdikdə bədənindən bütün toksinlər xaric olunur.

Müsahibimiz deyir ki, irəvanlı olan babamdan öyrəndiyim təbii meyvələrdən olan çəkmə araqlar və çaxırlar da sərgidə yer alıb. Bu da ona görədir ki, İrəvan şəhərində bir çox dadlı meyvələr – ərik, şaftalı, xartut, albalı, alça, üzüm bol olduğundan israf edilməyərək bu içkilər hazırlanıb.

Burada nehrədə yağ, süddən qatıq, xamanı necə hazırlayırlar hamısı nümayiş olunurdu. Burada biz və gələn qonaqlar üçün maraqlısı daş və toxmaqdır. Daş küftə necə döyülüb hazırlanırsa, əyani şəkildə göstərilir. Sonda Vəsilə xanım bildirdi ki, ermənilərin hazırda özlərininki kimi tanıtdığı mətbəxin 99 faizini Azərbaycan yeməkləri təşkil edir. Mətbəxlərinin yarıdan çox hissəsi İrəvan, 40-45 faizi isə Qarabağ mətbəxindən oğurlanmış yeməklərdir. Onlar bizim yeməklərin adlarında hərf dəyişikliyi edərək bütün dünyada erməni yeməkləri kimi tanıdıblar. Biz isə gələcək nəsillərə bu yeməkləri tanıtmaq üçün çalışmalıyıq. Onlar bilsinlər ki, bu nümunələrin hər biri Azərbaycan mətbəxinə aiddir.

Öyrəndiyimiz məlumatlardan da görünür ki, bizim bir çox yeməklərimiz türk xalqlarının mətbəxinə bənzədiyi halda onlar oğurluq edərək yeməklərimizi qədim erməni mətbəxi kimi təqdim edirlər. Yeməklərimizin adlarından da türkmənşəli olduğu görünür. Biz də hamılıqla birgə çalışmalıyıq ki, Qərbi Azərbaycan mətbəxini lazımi səviyyədə dünyaya tanıdaq. Bunun üçün daha çox informasiya toplanmalı, daha çox kitablar çap olunmalıdır.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin Texnologiya Mərkəzi tərəfindən təşkil olunan Qərbi Azərbaycan mətbəxinə məxsus kulinariya sərgisi də festival-konqres iştirakçılarının böyük marağını cəlb edib. Sərgiyə Naxçıvan Dövlət Universiteti tərəfindən 60-dan çox milli yemək, 44 çeşiddə meyvə və meyvə qurusu, 30 adda müalicəvi bitki, 94 növdə mürəbbə, 12 adda bitki çayı, 13 növdə şirniyyat, 20-dən çox adda doşab və meyvə şirəsi çıxarılıb.

**Bülbül QULİYEVA**














# Qərbi Azərbaycan mahallarına boylanan məkan – Batabat yaylağı




Naxçıvan daha bir mötəbər tədbirə – "Qərbi Azərbaycana qayıdış" festival-konqresinə ev sahibliyi etdi. Batabat yaylağında təşkil olunan festival bir çox məqamlarla yadda qaldı. Xüsusilə Oğuz elinin çaparlarının yaylaq əhatəsində bayram rəmzi olaraq üç tonqal qalaması, Dədə Qorqudun xeyir-duası, Qərbi Azərbaycan mahallarını tərənnüm edən, onları canlandıran çadırların qurulması vətəndaşlarımıza, xalqımıza qarşı törədilmiş haqsızlıqları dünya ictimaiyyətinin bir daha nəzərinə salmaq fürsəti yaratdı. Eyni zamanda festival-konqres ərzində XIX əsrin əvvəllərində imzalanmış Gülüstan və Türkmənçay müqavilələrindən sonra ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi və həmin müddətdə azərbaycanlıların deportasiyaya məruz qalması, 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xalqımıza qarşı soyqırımları həyata keçirilməsi, tarixi-mədəni irsimizin məhvi, qədim Azərbaycan torpaqlarında adların saxta, uydurma adlarla əvəzlənməsi bir daha dünyaya çatdırıldı.




Qərbi Azərbaycanda olan ata-baba yurdlarımızın – mahallarımızın adlarını özündə əks etdirən çadırların Batabat yaylağında qurulması, bu çadırlarda el adəti ilə toy məclisinin təşkil edilməsi doğma torpaqlarından didərgin düşmüş, deportasiya edilmiş vətəndaşlarımızı, bura gələn qonaqları tarixi keçmişimizə bir daha qaytardı. Bu çadırlarda qədim yurd yerimiz olan Qərbi Azərbaycan torpaqlarında xalqımızın min illərlə formalaşdırdığı və yaşatdığı mədəni irs, incəsənət, adət-ənənənin təbliği ilə yanaşı, həmçinin soydaşlarımız bir araya gəldi. Qurulan mahallarda – çadırlarda Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın acı taleyini özündə əks etdirən məlumatlarda, xüsusilə azərbaycanlıların Ermənistan ərazisində yerləşən qədim ata-baba yurdlarından sonuncu deportasiyası zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən 300 minə yaxın soydaşımızın zorla qovulması, 200-dən artıq soydaşımızın vəhşicəsinə qətlə yetirilməsi, 400 nəfərdən artıq insanın yaralanması, bir çoxlarının evləri, əmlaklarının yandırılması, 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlığın yer üzündən silinməsi daha çox diqqəti cəlb edirdi.

Festivalın Batabat yaylağında təşkil olunması həm də rəmzi məna daşıyırdı. Belə ki, vaxtilə həmvətənlərimizin yaşadıqları Qərbi Azərbaycan kəndlərinin yaylaqdan bir neçə kilometr məsafədə yerləşməsi festival iştirakçılarını ruhən, həmçinin coğrafi baxımdan da Qərbi Azərbaycana daha da yaxınlaşdırdı.

...Və bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə regionda yeni reallıqlar yaradan, Zəngəzurda, İrəvanda və digər əzəli Azərbaycan torpaqlarında yaşamaq hüququnu beynəlxalq birlik qarşısında qaldıran Azərbaycan xalqı əmindir ki, Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışın davamı olaraq Qərbi Azərbaycana qayıdış da reallaşacaqdır.

Prezident cənab İlham Əliyevin dediyi kimi: ***"İrəvan, Göyçə mahalı, Qərbi Zəngəzur illərdən bəridir ki, işğal altındadır. O yerlər bizim ulu babalarımızın, azərbaycanlıların əzəli torpaqlarıdır. Ermənilər üzərindəki hərbi üstünlüyümüz davam edəcək, gün gələcək ki, Zəngəzur Qafan, Gorus, Sisyan, Mehri rayonları, Göyçə mahalı və digər ərazilərimiz də azad olunacaq. O vaxt indiki Ermənistan Respublikasında yaşamış yüz minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb. Ancaq Ermənistan rəhbərliyi o vaxt yüz minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin salmışdır. Ondan sonra Dağlıq Qarabağda eyni mənzərə müşahidə olunurdu. Ermənistan tərəfi zor gücü ilə Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayət törətmişdir, Xocalı soyqırımı törətmişdir".***

**✍ Ceyhun MƏMMƏDOV**


























# 100 ilin qəhrəmanları

*“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Babək rayonunun Yarımca kəndindən olan şəhidimiz İbrahim Vəlizadənin anası Kifayət Vəliyevanın, Babək rayonunun Kalbaoruc Dizə kəndindən olan şəhidimiz Şəhriyar Məmmədovun anası Elmira Məmmədovanın və Şahbuz rayonunun Keçili kəndindən olan şəhidimiz Mərhəmət Həmzəyevin anası Qərənfil Həmzəyevanın övladları haqqında xatirələri yer alıb.*

## İbrahim Malik oğlu Vəlizadə

*(02.04.1997-06.10.2020)*

## Müharibə olsaydı bunların kökünü kəsərdik







İbrahimin xatirəsi o qədər çoxdur ki, danışmağa günlər yetməz. Gələcəyi üçün ən böyük arzum onun diş həkimi olması idi. Deyirdim, İbrahim, yaxşı oxu, diş həkimi ol. Deyirdi, ana, mən hərbçi olacağam. Bir dəfə dişimi düzəltdirirdim. İbrahim də birinci kursda oxuyurdu. Zəng vurdu ki, ana, haradasan? Dedim, İbrahim, bizim kəndimizdə Azər adında oğlan vardı ha, o diş həkimi olub. İndi gəlmişəm dişlərimi düzəldir. Sən diş həkimi olmadın. Dedi, ana, sən hələ də onu deyirsən? Ancaq mənim əynimdəki bu hərbi forma bütün geyimlərdən şərəflidir. Yəni o qədər sevirdi hərbini, hərbçi olmağı.

İbrahim öz toyunda da hərbi mundirini geyindi. Toy zalına Dövlət Himnimizin sədaları altında, həmin geyimdə daxil oldu. Çox sevirdi Vətənini.



Məni o qədər çox istəyirdi ki, ana ilə oğul deyil, bir sirdaş idik. Bütün sirrim, sözüm, arzularım onunla idi.

Danışanda hər zaman mənə ürək-dirək verirdi. Deyirdi, ana, səbir elə. O qədər gözəl günlər gələcək ki, o qədər yaxşı yaşayacaqsan ki, hamı sənə baş əyəcək. İnanın ki, o günlərdə kəndə yasa getdim. Qapıdan girən kimi hamı ayağa qalxdı. İbrahimin sözü yadıma düşdü. Çox narahat oldum. Dedim, oğul, kaş sən yanımda olardın. Mən çox qürurluyam, fəxr edirəm. Amma bu cür təzimi, hörməti istəməzdim.

Tez-tez deyirdi, müharibə olsaydı gedərdik, bunların kökünü kəsərdik. Dedim, ay oğul, bəs sizlərə bir şey olar axı elə deme. Dedi, ana, fərz et ki, sən 30 ildir, orada əsirsən, mənim yolumu gözləyirsən. Mən də sənin dalınca gəlmirəm. Ana, orada o qədər ana-bacılarımız əsirdi, biz onları qurtarmalıyıq. Baxın, bizim övladlarımız belə övladlardır.

Sonuncu dəfə oktyabrın 5-də bizimlə danışdı. Müharibə başlayan günü hər kəsə bir mesaj yazmışdı. Birini atasına, birini yoldaşına. Yazmışdı ki, haqqınızı halal edin. Mənə yazmamışdı. Narahat olmağımı istəməmişdi. İndi İbrahimin iki əmanəti var. Yoldaşı Büllur və oğlu Fərid. Mən oğlumla fəxr edirəm. Vətən sağ olsun!

## Şəhriyar Müzəffər oğlu Məmmədov

*(22.02.1999-15.10.2020)*

## Çox vətənpərvər idi



Şəhriyar mənim gözümün nuru, kiçik balam idi. Ətrafdakıların hamısı onu çox sevirdi. Kiçik yaşlarından məsuliyyətli, ağıllı, özünə hörmət edən uşaq idi. Anaya, ataya, hər kəsə qarşı çox sayğılı idi. Şəhriyar cavan yaşında şəhid olmasına baxmayaraq, hələ heç kimsə ondan incimәmişdi. Həmişə deyirdi ki, ana, atamla səni yanımda saxlayacağam. Deyirdi, bu evi ver böyük qardaşıma. Evlənib sizi özümlə aparacağam. Şəhriyarla birlikdə evimizin nəşəsi, sevinci də gedib. Artıq hər şey başqa cür olub. Heç nəyə sevinə bilmirik, gülə bilmirik. Övladımın həsrəti ilə yaşayırам.



Biz övladlarımızın heç birinə ad günü etmirdik. Təkcə Şəhriyarın ad gününü evdə qeyd edirdik. Niyəsini bilmirəm, amma yalnız ona ad günü etmişik.

Hərbi sahəni də özü seçmişdi. Məktəbdə əlaçı oxuyurdu. Dedik ki, hərbidən başqa yerdə də təhsilini davam etdirə bilərsən. İsrarla “Yox”, – dedi. Dediyini də etdi. Çox vətənpərvər idi. Ürəyi Vətəni ilə döyünürdü.

Tətillərdə evə gələn kimi hamının bizə gəlməyini istəyirdi. Evə gələn kimi deyirdi ki, ana, bu gün kim gələcək bizə? O qədər mehriban idi, mənim balam.

Amma elə bil ki, ölümünü bilirdi. Sonuncu dəfə evə gələndə dedi, ana, qoy hamı yatsın, biz söhbət edək. Həmin gün gecə saat üç idi, biz hələ də söhbət edirdik. Dedim, mənim yuxum gəldi, gedirəm yatam. Dedi, sənə bir söz də deyim get yat. Dedi, ana, Allah bu dünyada hər kəsin arzusunu yerinə yetirsə, dünyadan doyarsan. Amma bir şeyin həsrəti ilə yaşasan, onda bu dünya sənə maraqlı olar. İndi o dediyi anı mən yaşayıram. Bilirəm ki, o nə demək istəyirmiş.



Sonuncu dəfə oktyabrın 7-si zəng vurdu. Dedi, hər şey yaxşıdır. Qardaşıma de mənə kontur göndərsin. Həmin gün hamı ilə danışıb. Uşaqlar məni aldatmışdılar ki, Şəhriyar arxadadır. Müharibə vaxtı televizora baxıb deyirdim ki, hər kəs döyüşür mənim oğlum arxa tərəfdədir. Zəng vuranda bunu ona dedim, güldü. Nişanlısı ilə də danışanda deyib ki, arxayın ol, gələ bilsəm gələcəyəm. Amma balam gələ bilmədi. Nişanlısı da, anası da, hər şeyi torpaq oldu.





## Mərhəmət Rizvan oğlu Həmzəyev

*(24.02.1997-12.10.2020)*

## Cəsarətli, mərd həm də adı kimi mərhəmətli idi...



Mərhəmət çox fərqli uşaq idi. Uşaq yaşlarından hərbi formanı çox sevirdi. Həmişə hərbçilərə həsəd aparırdı. Heç yadımdan çıxmaz, bir dəfə qardaşımgilə getmişdi. Qardaşımın hərbi paltarı var idi. Geyindi gəldi ki, ana, bu paltar mənə necə yaraşır? Dedim, ay oğul, sən bu paltarı neynirsən? Hələ bir böyü sonra. 12-13 yaşı vardı o zaman Mərhəmətin.

Uşaqların hamısından seçilirdi. Bacı və qardaşı ilə çox mehriban idi. Eyni zamanda uşaq yaşlarından cəldliyi, çevikliyi ilə seçilirdi. Adı kimi həm də mərhəmətli idi. Birinə bir kömək lazım olsa, o dəqiqə yardım əlini uzadardı. Elə bu cəsurluğu, mərhəmətliyi onun gələcək yolunu müəyyənləşdirdi.

Hərbi liseyə də həvəslə getdi. 15 yaşından bizdən ayrıldı. Millətinin, xalqının övladı oldu Mərhəmət. Yeddi il hərbidə oxudu, olduğu sahədən bir kəlmə olsun belə evdə və ya başqa yerdə danışmazdı. Hətta Bakıda təhsil alanda soruşduq ki, Naxçıvandan kim var yanında? Onu belə demədi. Elə deyirdi heç kim yoxdur. İndi əksəriyyəti şəhid olub. Evlərinə gedirik ki, Mərhəmətlə şəkil çəkdirib. Elə sirr verməz oğul idi.

Atası ilə dost idi. Mərhəmətgil balaca olanda imkanımız o qədər də yaxşı deyildi. Atası o qədər orada-burada işləyirdi ki, uşaqlar onu görə bilmirdi. Heç razı olmurdu ki, atası işləsin.

Sonuncu dəfə sentyabrın 26-sı danışdıq Mərhəmətlə. Sonra Mərhəmətdən zəng gəlmədi. Oktyabrın 7-si atası nömrəsinə zəng vurdu. Bir nəfər açdı. Dedi ki, telefonunu mənə verib. Dedi, təminata verərsən. Yaralı idim, məni döyüş bölgəsindən çıxartdı. Özü irəlidədir. Sonra yenə zəng vurduq. Mərhəmətin telefonuna zəng çatmadı. Bir daha Mərhəmətlə danışa bilmədik. Beləliklə, onun ömür yolu da Vətəni ilə bütövləşdi. O Vətən ki torpaqlarının azadlığı uğrunda mərhəmət kimi oğullarımız şəhid oldu. Çətin olsa da, qürurluyuq. Fəxr edirik ki, Mərhəmət kimi oğullarımız sayəsində torpaqlarımız azad olundu.

# Naxçıvanın mərcan gözlü gözəli





Naxçıvanın təbiəti, təbii nemətləri, təbiət abidələri sağlam yaşam tərzinə üstünlük verən hər kəsin seçimidir. Nuhun ayaq basdığı bu qədimdən də qədim ulu diyarı dövrələyən, yayın cırhacırında belə təpəsində qar olan əzəmətli dağlar, bol meyvəli, bəhrəli bağlar, uzunsaçlı gözəli xatırladan şəlalələr, çaylar, göllər Tanrının bu yerlərə bəxşişidir. Gül-çiçəkli çəmənlikləri, saf və təmiz dağ havası, meşələri, Zorbulaq, Durnalıbulaq, Uzunbulaq kimi şirin suları və "Narzan" tipli mineral suları ilə məşhur olan Batabat yaylağını isə şair İslam Səfərli mərcan gözlü gözələ bənzədib:

*Bulaqların bir səmtdən axarı,*
*"Salvartı"nın xoş görünür baxarı,*
*Biçənəkdən at səyridib yuxarı,*
*Yalmanına yata-yata gəlmişəm,*
*Mərcan gözlü Batabata gəlmişəm.*

Biçənəyi geridə buraxıb dolanbac yollarla mərcan gözlü Batabata doğru yol alırıq. Dillər əzbəri olan Batabat yaylağı Şahbuz rayonunun ərazisində, Kiçik Qafqaz dağlarında yerləşir. Burada, əsasən, dağ, göl və dağ-çəmən landşaftı inkişaf edib. Batabat yaylağını dəniz səviyyəsindən, təqribən, 3100-3200 metr hündürlüyü olan "Ağdaban", "Qonaqgörməz", "Səbətkeçməz", "Təkəli", "Əyriqar", "Çaldağ" adı ilə tanınan dağlar əhatə edir. Mütəxəssislər Batabat yaylağının təbiətini, saf havasını ağciyər, ürək, əsəb və bir sıra xəstəliklər üçün çox faydalı hesab edir. Bu yerlərin iqlimi və füsunkar mənzərələri xarici turistləri də bura cəlb edir. Bitkilərin növ müxtəlifliyinə görə bu ərazi Afrika qitəsində yerləşən məşhur Atlas dağlarından sonra ikinci yerdədir.

Bunun da bir neçə səbəbi var: təbii iqlim şəraitinin rəngarəngliyi, yüksəklik qurşağının mövcudluğu və landşaftın mürəkkəbliyi. Digər tərəfdən, Batabat ərazisinin yerləşdiyi Naxçıvan Muxtar Respublikası 3 geobotanik vilayətin sərhədində yerləşir. Ərazi bu vilayətlərin müxtəlif növ bitkilərini özündə cəmləşdirir. Yəni burada həm Qafqaz, həm Kiçik Asiya, həm də Ön Asiyanın bitki növlərini görə bilərik. Ərazi Zəngəzur və Dərələyəz sıra dağlarının təmas xəttində yerləşir. Zaman-zaman baş verən tektonik hərəkətlər relyefi mürəkkəbləşdirir, bu da, eyni zamanda təbiətin rəngarəngliyini artırır.

Geoloji quruluşun mürəkkəbliyi burada müxtəlif genetik tiplərə məxsus çoxlu mağaraların yaranmasına səbəb olub. Qədim insanların məskunlaşdığı ayrı-ayrı yerlərdə insanlar tərəfindən mağaralar – zağalar inşa edilib. Misal olaraq tarixi və təbiət abidəsi olan məşhur Fərhad evini göstərmək olar. Batabat yaylağında arxeoloji abidə kimi qeydə alınan Fərhad evi (Ağ karvansara) Zorbulaqdan, təqribən, 1 kilometr şərqdədir. 4 otaqdan ibarət Fərhad evi buradan keçən karvan yollarına xidmət etmiş və müvəqqəti sığınacaq kimi istifadə olunmuşdur. Bununla belə ərazidə onlarla təbii mağaralar mövcuddur ki, bu da turistlərin marağına səbəb olur. Meşə hissəsində indiyə qədər tədqiq olunmayan mağaralarda qədim insanlar məskunlaşmışlar.

Altı da üstü kimi sərvət olan bu torpağı qarış-qarış gəzmiş, mətbuatda çoxsaylı müsahibələri ilə Naxçıvan təbiətinin yorulmaz təbliğatçısı kimi tanınan coğrafiya üzrə fəlsəfə doktoru Nazim Babaəyli qeyd edirdi ki, Batabatda Naxçıvan Muxtar Respublikası üçün xas olmayan meşə örtüyü formalaşıb. Bunun əsas səbəbi əlverişli hidrogeoloji şəraitin olmasıdır. Biz ətrafı diqqətlə nəzərdən keçirsək, buranın dağlarla əhatə olunduğunu və çanaqşəkilli forma yaratdığını görmüş olarıq. Bu, yeraltı suların yalnız bir yerdən – Naxçıvançay dərəsindən çıxmasına səbəb olur. Və beləliklə, yer altında zəngin su ehtiyatı toplanıb. Bunun nəticəsində meşə örtüyü formalaşıb.

Qeyd etmək lazımdır ki, meşə ağaclarının bəziləri, məsələn, Şərq palıdı, Araz palıdı endemik bitkidir. Bu ağaclar landşaft zəncirinin əsas hissəsini təşkil edir. Yəni palıdın qozaları meşədə məskunlaşan çöl donuzlarının, donuzlar isə ayıların qida zəncirinin bir halqasını təşkil edir. Burada dünyanın ən zəhərli və ən qiymətli ilanlarından olan Radde gürzəsinə rast gəlinir. Bu, quru ilanları içərisində zəhərliliyinə görə ikinci sayılır.

Burada dağların səmti güneyə doğru olduğundan buradakı Günəş radiasiyasının miqdarı, təxminən, ekvatorda olduğu qədərdir. Günəş radiasiyasının özü turizm-rekreasiya potensialının mühüm tərkib hissəsi sayılır. Havanın təmizliyi, mütləq hündürlüyün yuxarı olması, Günəş şüalarının spektrində olan müalicəvi şüaların bolluğuna səbəb olur. Səhər və axşam saatlarında insan orqanizmi üçün faydalı olan, müalicəvi əhəmiyyət daşıyan Günəş vannaları qəbul etmək faydalı sayılır.

Muxtar respublikada 200-dən artıq mineral su mənbəyi var. Batabatı məşhurlaşdıran Zorbulağın suyunu isə yerli əhali qənimət sayar. Bu qəniməti qoruyar, sevər və istifadə üçün uzaq məsafə qət edib özləri ilə apararlar.

Mənbələr göstərir ki, Zorbulağın adı Qırxbulaq olub. Əvvəllər ərazidə böyük bataqlıq olub. Bu bataqlıq Zorbulaq və onun ətrafında olan 40-a qədər bulaqla qidalanıb. Bataqlıq su anbarına çevrildikdən sonra həmin bulaqlar göl suyunun altında qalıb. Zorbulağa gəlincə isə bu bulağın suyu insan orqanizmi üçün olduqca faydalıdır. Əvvəla, mineral tərkibinə görə, ikinci, bu sularda həll olunmuş oksigenin miqdarı həddindən artıq çox olduğuna görə. Zorbulağın suyu maqneziumlu-hidrokarbonatlı sular tipinə aiddir. Bu sudan içən insan rahatlıq tapır. Zorbulaqda həll olunmuş oksigenin miqdarı 6 milliqrama çatır, bu da çox yüksək göstəricidir. Bulağın suyu vulkanogen süxurlardan sızır, bu zaman həm yüksək dərəcədə təmizlənmə baş verir, eyni zamanda su mikroelementlərlə zənginləşir. Bu da suyun yüksək keyfiyyət göstəricilərinə malik olmasını təmin edir. Qeyd olunan bu vulkanogen süxurların 26 milyon il yaşı vardır. Zorbulaq, eləcə də ərazidəki digər bulaqlar ətraf mühitin rekreasiya potensialını xeyli artırır.

Batabatda oldunsa, geri qayıtmaq haqqında düşünmürsən. Ta hava qaralıb, necə deyərlər, səni xəbərdar edənədək. Təbiət bütün cazibəsi ilə qarşındadır, ruhunu oxşayan rahatlıq səni özünə o qədər çəkir ki, geri dönməyə tələsmirsən. Məşhur "Üzən ada"nı zövqlə seyr etmədən, bu gözəl mənzərəni fotoaparatın yaddaşına köçürmədən bu yerlərdən necə ayrılmaq olar?

Batabat göllərindəki sularda olan müxtəlif mikroorqanizmlər inkişaf edərək suya yaşılımtıl rəng verir. Aşağı Batabat gölündə "Üzən ada"nın formalaşması da məhz bu amillə əlaqədardır. Əmələ gəlmiş zəngin bitki örtüyü tam çürüməyə məruz qalmadığına görə torfa çevrilir və bu torf ilbəil qalınlaşır. Torfun xüsusi çəkisi sudan yüngül olduğuna görə, o suyun üzündə qalır və suyun dibinə doğru inkişaf edir. Torf kütləsi güclü küləklərin təsiri ilə öz yerini tez-tez dəyişir və bu səbəbdən də "Üzən ada" adlanır. Bunun özü də gölə ekzotik görünüş verir.

Batabat massivində həddindən artıq endemik, relikt və dərman bitkiləri mövcuddur. Məsələn, raddel laləsi, qaymaqçiçəyi, pişikotu, həmərsin, gəvən, əvəlik, yarpız, dazotu, qantəpər, kəklikotu, solmazçiçək, səhləb – hər biri can dərmanıdır. Elə ki bitkilər torpaqdan baş qaldırdı, faydasını bilənlər gəlib toplayar, qışa saxlamaq üçün qurudarlar. Burada, necə deyərlər, gül gülü çağırır, bülbül bülbülü. Çiçəklərin ətri adamı bihuş edir. Bəzisini iyləyirsən, bəzisini toplayıb özünlə götürürsən.

Saysız-hesabsız bitkilər ərazini həm də arıçılar üçün əlverişli edib. Arıçılar təbiətin səxavətindən ehtiyatla faydalanmağa çalışırlar. Şahbuz balının dadına isə dad çatmaz, bazarlarda adı ilə tanınır.

Yolüstü öz zəhmətlərinin məhsulu olan balla yanaşı, kənd adamlarının hazırladığı və satışa çıxardığı mürəbbə və kompotlar da diqqətimizdən yayınmır. Baldırğan turşusunu çox az adam tapılar ki, xoşlamasın. Nəinki turşusunu, mürəbbəsini belə buradan tapmaq olar. Qızılgülün, həmərsin çiçəyinin, cəvizin mürəbbəsi, tut, həmərsin doşabı, saymaqla bitməyən nemətlər. Həm qiyməti münasib, həm də cana faydalı. Yoldan ötən yolçunu təbiətin yetişdirdiyi, həm də insan əlinin zəhməti ilə yoğrulan nemətlər əyləyər.

Batabatın gözlə görünməyən, özündə gizli saxladığı tərəfləri haqqında, əziz oxucu, öyrəndiklərimizi sizinlə bölüşmək istədik. İnsan təbiətin bir parçasıdır və səxavətini bizlərdən əsirgəməz. Yetər ki, Naxçıvanın mərcan gözlü gözəlini sevək, qoruyaq, ondan düzgün faydalanaq.

Batabat həm də bir neçə ildir, milli dəyərlərimizi təbliğ edən festivallar məskəninə çevrilib. Çox təqdirəlayiq haldır ki, iyunun 21-22-də "Qərbi Azərbaycana qayıdış" festival-konqresi Batabat yaylağında reallaşıb. Qayıdışın addım səsləri bu dəfə Batabatdan duyuldu. Bunun rəmzi mənası yurd yerlərini sevən qərbi azərbaycanlıların sevgisi, həsrəti qədər dərin və ülvidir…

**Ruhiyyə RƏSULOVA**

## Elan

"Naxçıvan Tikinti Materialları" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə çatdırılır ki, 15 avqust 2024-cü il tarixdə "Naxçıvan Tikinti Materialları" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının ümumi yığıncağı keçiriləcək. Yığıncağın gündəliyində duran məsələlər:

*1. Cəmiyyətin Müşahidə Şurası İdarə Heyəti və Təftiş Komissiyası üzvlərinin seçilməsi*

*2. Cari məsələlər.*

Ümumi yığıncaq 15 avqust 2024-cü il tarixdə saat $10^{00}$-da Babək rayonu Araz kəndində müəssisənin inzibati binasında keçiriləcəkdir.

## İtmişdir

Şərur rayonu, Oğlanqala kənd sakini Seyidov Cavanşir Məcid oğlunun adına olan JN-323 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kənd sakini İbrahimov Əli Kərbalayı Salman oğluna məxsus JN-237$^{A}$, 10200028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkənd sakini Vəliyev Məmməd Cəfər oğlunun adına verilmiş JN-266$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Nəcəfov Şirxan Yalçın oğlunun adına olan AD-0055623 seriya nömrəli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Məmmədova Əntiqə Heydər qızının adına verilmiş JN-792$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kəndində yaşamış Həsənov Məhəmməd Vəli oğlunun adına olan JN-079$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Alışar kəndində yaşamış İsmayılova Salansə Baxşəli qızının adına olan JN-1478 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Novruzov Ramiz İsa oğlunun adına olan JN-446$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm kənd sakini Hüseynov Əli Məhərrəm oğlunun adına olan 1149 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Ramiyə Əkbərova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 179